# Əsrlər öncə psixoloji problem olan
# NARSİZMDƏN DANIŞAN HZ. İMAM ƏLİ (Ə)...



**Narsizm"- bu ifrat dərəcədə özünəvurğunluğu ifadə edən xarakter əlamətidir. Narsizm termini adətən şöhrətpərəstlik, özü haqqında yüksək fikirdə olma, eqoizm və ya sadəcə özünəvurğunluğun mənfi çalarlarını ifadə etmək üçün istifadə olunur. Biz hər birimiz bir qədər "narsistik". Lakin əgər narsizm komponenti şəxsiyyəti əhəmiyyətli dərəcədə işğal edirsə, o zaman problemlər başlayır. Psixologiya və psixiatriyada ifrat narsizm hətta ciddi şəxsiyyət pozuntusu hesab olunur.**

Yunan əfsanəsinə görə Narsist adlı bir gənc suda öz təsvirini görərək vurulmuş və öz gözəlliyinin tamaşasından ayrıla bilməyərək özünə qarşı sevgidən vəfat etmişdir. Məhz bu mif Freydi bu patologiyaya "narsizm" adı verməyə ruhlandırmışdır.

Mütaliə vaxtı qarşıma maraqlı bir hədis çıxdı. Hz. Əlidən (ə) nəql olunan bu hədisin narsizmdən söz açdığını desək bəlkə də yanılmarıq. İmam (ə) buyurur:

İnsanın öz eyblərindən xəbərsiz olması (öz eyblərini görməməsi) onun ən böyük günahlarındandır. (Biharul-ənvar, c.74, səh,419)

İnsanın gördüyü hər bir işin bir ruhani və psixoloji mənşəyi var. Yəni onu həmin işi görməyə sövq edən onun ruh halı psixoloji durumudur. Məsələn biri qeybət edirsə, qeybət etdiyi şəxsə qarşı həsəd və kinindən qaynaqlanır. Haram gəlirdən çəkinməyən şəxsin bu işi dünyapərəst, pulgir və uzun-uzadı arzulara sahib olduğundan qaynaqlanır. Yaxud da qarşısındakını təhqir edən şəxsin bu işi onun təkəbbürlü, özünü qarşısındakından daha üstün hesab etməsindən qaynaqlanır. Əgər insan onu günaha sövq edən bu ruh halından və psixoloji qüsurundan xəbərdar olarsa, ondakı günaha və çirkinliklərə meyl kökündən çürüyər.

Görəsən insan niyə öz eyblərini görə bilmir? Başqasının gözündəki xırda çöpü görən adam öz gözündəki tiri niyə görmür axı?! Bunun səbəbi nədir?

Belə cavab verə bilərik ki, bunun mənşəyi insandakı özünə vurğunluq, özünü sevməsidir, narsizimdir. (Dini terminologiyada buna "hubbuz-zat" deyilir.)

Əslində bu hal kontrol olunan miqdarda normal haldır. Çünki insanın özünümüdafiə mexanizminin




əsas hissəsini təşkil edir. Lakin kontroldan çıxıb ifrat həddə çatdıqda insan narsizmə yoluxur. Və özünə ifrat məhəbbət onu öz eyb və nöqsanlarını görməyə mane olur. Əksinə eyblərini belə gözəllik və dəyər olaraq görməyə başlayır. Məsələn tənbəlliyini görmədikdə, deyəcək ki, özümə layiq iş yoxdur. (Yaxud da adam dindardırsa, bu halda özünü yalançı zahidliyə vuracaq). Danışıqda nəzakətsizliyinə, söyüş söyərək insanları təhqir etməsinə şücaət donu geydirəcək.

Nəticədə özünə vurğunluğu Narsiti həlak etdiyi kimi, özünə vurğunluğundan öz eyblərini görməmək də insanı həlak edir.

Bəhruz Camal

# QURBANLIQ ƏNƏNƏSİ

# FƏDAKARLIĞIN KÖNÜL SEVİNCİ

**Qurban bayramı islamın iki ən böyük bayramından biridir. Qurbanlıq ənənəsi hələ qədim dövrlərdən insanlar arasında geniş yayılıb. Bir sıra inanclara görə, İlahidən əhəmiyyətli bir şey dilədikdə bu diləyin qəbul olunması üçün mütləq qurban vermək lazım idi. Bəzi inanclarda qəbilənin yeniyetmə və ya gənclərindən birinin həyatına qurbanlıq adı ilə qəsd edirdilər. Bir çox qəbilələrdə adətən qurbanlıqlar qızlar olurdu. Beləliklə, guya Allah yolunda günahsız birinin qanı axıdılır və buna qurbanlıq adı verilirdi. Bir sıra digər inanclarda bu niyyətlə dəyərli hesab olunan başqa şeylər də İlahiyə "qurban" verilirdi. İbtidai düşüncəyə malik olan insanlar belə hesab edirdilər ki, bir şeyin müqabilində insanlara olduğu kimi Allaha da mütləq nəyisə vermək lazımdır. Belə düşünürdülər ki, Allahın verilən bu qurbanlara ehtiyacı var və bu ehtiyac ödənilərsə, mütləq diləklər yerinə yetiriləcək. Beləcə, ilin məhsuldar olması, yağışın yağması, ovun uğurlu olması, savaşlarda qələbə qazanılması və s. kimi şeylər üçün qurbanlıqlar verilirdi. Halbuki Uca Allahın heç bir şeyə ehtiyacı yoxdur. Rəbbimiz "İxlas" surəsinin 2-ci ayəsində belə buyurur: "Allah (heç kəsə, heç nəyə) möhtac deyil!". İnsanların qurbanlığa belə primitiv və xurafatla yanaşdığı bir dövrdə Uca Yaradan Öz peyğəmbəri Həzrət İbrahimi (ə) sınağa çəkir. Bu hadisə ilə qurbanlığın həqiqi, ilahi mahiyyəti bəşəriyyətə tam təfsilatıyla açıqlanıb, tarixə həkk olunur.**

## Əzizi ilə sınanan peyğəmbər

Həzrət İbrahim peyğəmbər qocalıb ixtiyar yaşına çatmışdı. Yaşı ötsə də, hələ də oğul-qız sahibi olmamışdı. O, bol-bol dua edib Allahdan nəslini davam etdirəcək övlad diləyirdi. Qoca yaşlarında Həzrət İbrahimlə zövcəsi Həcərə Allah övlad payı nəsib etdi. Bu uşağın adını İsmayıl qoydular. İsmayıl böyüyüb yaraşıqlı bir oğlan oldu. Atası onu çox sevirdi. Bu vaxt Allah-təala İbrahim peyğəmbəri sınağa çəkmək istədi. O yoxlamaq istədi ki, görəsən, İbrahim Allahı daha çox sevir, yoxsa İsmayılı. Bir gecə yatdığı vaxt İbrahim peyğəmbərə vəhy gəlir ki, dünyalarca sevdiyi İsmayılı Allah yolunda qurban kəssin. Səhər o, İsmayılı da özüylə götürüb Məkkədən çıxdı. Ata-oğul birlikdə şəhər kənarındakı Mina dağına yollandılar. İbrahim peyğəmbər öz məqsədini hələ oğluna açıb deməmişdi. Mina dağına çatanda Həzrət İbrahim İsmayıla söylədi:

- Oğlum, Allah mənə əmr edib ki, səni qurban kəsim. Ona görə də bu gün səni buraya gətirdim.




İsmayıl atasına ədəblə belə cavab verdi:

- Ata, sən peyğəmbərsən. Nə etmək lazım olduğunu yaxşı bilirsən. Mən heç vaxt Allahın əmrindən və sənin sözündən çıxmaram. Allah sənə nə əmr edibsə, onu yerinə yetir. Mən Allah yolunda hər bəlaya, hətta ölümə də dözərəm...

İbrahim peyğəmbər oğlu ilə halallaşıb onu yerə uzandırdı, bıçağı əlinə götürüb onun boğazına çəkdi. Amma Allahın əmri ilə bıçaq İsmayılın boğazını kəsmədi. Həzrət İbrahim bıçağı bir də, sonra bir də çəkdi. Amma İsmayılın boğazı yenə kəsilmədi. Bu zaman Allah-təala Cəbrayıl mələyi iri bir qoçla İbrahimin yanına yolladı. Cəbrayıl İbrahim peyğəmbərə dedi:

- Ey İbrahim! Allah sənin sədaqətini yoxlamaq istəyirdi. Sən sübut etdin ki, doğma oğlunu da Allaha qurban verməyə hazırsan! Bu bir imtahan idi. Allah istəmir ki, İsmayıl ölsün. Gətirdiyim bu qoçu İsmayılın əvəzində Allaha qurban kəs!

İbrahim peyğəmbər oğlunu yerdən qaldırdı, sonra Allah yolunda qoçu qurban kəsdi.

## Zil-hiccənin 10-u

Bu hadisə Zil-hiccə ayının onuncu günü baş verib. Həmin günü müsəlmanlar Qurban bayramı günü kimi qeyd edirlər. İndi də qurban bayramında dünyanın hər bir yerində yüz minlərlə müsəlman İbrahim peyğəmbərin hərəkətlərini təkrar edir, Allah yolunda qurbanlar kəsir. Həcc ziyarətində olan zəvvarlar üçün isə Qurban bayramı günü qurban kəsmək vacibdir. Artıq bəşəriyyət anlayır ki, Allahın heç nəyə ehtiyacı yoxdur və bizdən tələb olunan sadəcə fədakar olmamız, Onun yolunda hər an hər şeyimizdən keçməyə hazır olmamızdır. Bu, bir sədaqət göstəricisidir. Deməli, bu gün kəsilən qurbanlar həm də



bir simvoldur. Allaha sədaqət və fədakarlıq simvolu! Qurban kəsən insan qurbanlıq heyvanı Allah yolunda kəsdikdə səmimi qəlbdən Həzrət İbrahimin əlinə bıçaq alıb oğlu İsmayılı kəsmək istəyərkən keçirdiyi o hissləri keçirməlidir. Bütün vücudu ilə, qəlbi ilə, ruhu ilə Allaha bildirməlidir ki, mən də İbrahim kimi Sənin yolunda hər şeyimdən keçməyə hazıram! Malımdan, mülkümdən, varımdan, dövlətimdən, canımdan və həyatda ən əziz saydıqlarımdan belə!..

### Qurban bayramının mahiyyəti

Qurban kəsib Həcc əməllərini tamamlayan şəxs əslində bütün nəfsi istəklərini Allaha təslim etmiş olur. Onun kəsdiyi qurbanlıq zahirdə sadəcə bir heyvan, əslində isə dünyaya olan aşırı bağlılıqlarıdır. O, qurbanını kəsməklə bu bağlılıqlarını kəsib Allaha təslim edir və Həzrət İbrahim məqamına doğru ucalır. Belə bir şəxs üçün artıq Allah yolunda günah işlərdən çəkinmək adi bir işə çevrilir. Qurban bayramının BAYRAM olmasının mahiyyəti də elə ilk növbədə bununla bağlıdır. İnsan Allah yolunda hər şeyini QURBAN verməyə hazır olduğunu nümayiş etdirir, onu dünyaya bağlayan ağır zəncirləri qırıb, onlardan xilas olur, nəfsani istəkləri üzərində zəfər çalır və bu möhtəşəm qələbə münasibətilə sevinib, BAYRAM edir. Deməli, Qurban – insanın Allah qarşısında Fədakarlıq bayramıdır. Bu, Allaha "ləbbeyk!" deməyimizin mənəvi formuludur...

Bütün bunlardan çıxış edərək qurbanlıq heyvanın bir simvol olduğunu anlaya bilərik. Allah-təala bizlərə qurbanlıq olaraq heyvan kəsmək və ondan ehtiyaclılara ehsan vermək yolunu öyrədir. Və insanlara anladır ki, Onun qurbana ehtiyacı yoxdur, bizim öz nəfsimiz üzərində qalib gəlməmiz, təqvalı olmamız, Allaha doğru daha da ucalmamız üçün buna ehtiyacımız var. Rəbbimiz buyurur:

"Sizin üçün bu qurbanlarda (dini və dünyəvi) xeyir var... Onların (qurbanlıq heyvanların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır. Allah sizi doğru yola yönəltdiyi üçün Onu (layiqincə) uca tutasınız deyə bunları sizə belə ram etdi. (Ey Muhəmməd!) Ehsan edənlərə müjdə ver!" (Surə 22, ayə 36-37).

### Həzrət Məhəmməd peyğəmbərin ulu babası...

İsmayıl bir qurbanlıq nümunəsidir. Hətta kəsilməsə belə! Qeyd edək ki, Allah-təala Həzrət İsmayıla da peyğəmbərlik verir. O, Ərəbistan torpağında yaşayıb insanları Allahın yoluna dəvət edir və camaatı İbrahim peyğəmbərin tapşırıqlarına əməl etməyə çağırırdı. Həzrət İsmayılın çoxlu oğul-uşağı olur. Onun nəsli min illər boyunca davam edir. Sevimli peyğəmbərimiz Həzrət Məhəmməd də İsmayıl peyğəmbərin nəslindən doğulub. Yəni Həzrət İsmayıl Məhəmməd peyğəmbərin ulu babasıdır.

İbrahim peyğəmbərin qurban əhvalatı müqəddəs kitabımız "Qurani-Kərim"də nəql edilir. Rəbbimiz "Saffat" surəsinin 100-108-ci ayələrində belə buyurur:

"(İbrahim müqəddəs torpağa yetişdikdə dua edib) dedi: "Ey Rəbbim! Mənə salehlərdən olan (bir övlad) bəxş et!" Biz də ona həlim xasiyyətli bir oğlan uşağı (İsmayıl) ilə müjdə verdik. O, yüyürüb-qaçmaq və atasına kömək edə bilmək çağına çatdıqda (İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən! O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbrlilərdən olduğumu görəcəksən!" Onların hər ikisi (Allahın əmrinə) təslim olduğu və (İbrahim İsmayılı qurban kəsmək üçün) üzüstə yerə yıxdığı zaman Biz ona belə xitab etdik: "Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin!" (Sənə yuxuda nə əmr olunmuşdusa, onu yerinə yetirdin. Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Şübhəsiz ki, bu açıq-aydın bir imtahan idi. Biz ona böyük bir qurbanlıq əvəz verdik. Sonradan gələnlər arasında onun üçün (gözəl xatirə) qoyduq".

### Ehsan edənlərə müjdə...

Bu əhvalatla Rəbbimiz insanlara öyrətdi ki, Allah yolunda kəsilən qurbanın mahiyyəti onu bilavasitə Allaha təqdim etmək deyil, Onun buna heç bir ehtiyacı yoxdur. Əhvalatdan gördüyümüz kimi, bununla bir tərəfdən Həzrət İbrahim peyğəmbər sınandı, ən əzizi və sevimlisini Allah yolunda qurban verməyə hazır olduğunu səmimi qəlblə nümayiş etdirdi. Digər tərəfdən Mehriban Rəbbimiz heyvan kəsməyi buyuraraq qurbanın mahiyyətini açıqladı, Onun yolunda kəsilən qurbanları ehtiyacı olanlara təqdim edək, özümüz də bu qurbanlıqdan dadaraq onun əsas hissəsini kasıblara, imkansızlara paylayaq, Allah yolunda ehsan edək. Bir daha Rəbbimiz buyurduğu bu ayəyə diqqət yetirək:

"Onların (qurbanlıqların) nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır... (Ey Məhəmməd!) Ehsan edənlərə müjdə ver!" (Surə 22, ayə 37).

Allah bizləri həqiqi təqva sahibi və müjdə verilənlərdən qərar versin. AMİN!

Elşən MUSTAFAOĞLU

# QURBANLIĞIN TARİXİ

Tarixi nişanələr göstərir ki, müxtəlif millətlər və ümmətlər arasında qurbanlıq məsələsi olmuşdur. Qurani-Kərimdə bu mövzunun kökünün Həzrət Adəmin (ə) yaranışı və övladlarının zamanından olduğu bəyan olunur.



"Maidə" surəsinin 27-ci ayəsində belə buyurulur:

***"Ya Muhəmməd! Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə! Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdır. Qurbanı qəbul olunmayan Qabil, qardaşı Habilə demişdi: "Səni mütləq öldürəcəyəm!". Habil ona belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən qurbanı qəbul edər!"".***

"Tövrat" kitabından məlum olur ki, Allah Həzrət İbrahimə (ə) heyvanları qurbanlıq etməyi əmr edir. İbrahimin (ə) övladları da həmin yolla özlərini Allahın rəhmətinə yaxın edirlər.

**Həzrət Musanın (ə) dövründə qurbanlıq bir neçə qisim idi.**

Birinci qisim odda yandırılmalı idi. Təkcə dərisi qalır, o da kahinə məxsus olurdu. İkinci qisim qurbanlığın yarısı yandırılır, yarısı isə kahinə çatırdı. Üçüncü növ qurbanlığın əti hamıya aid idi.

Rumlular öz tanrılarından ötrü qurbanlıqlar kəsirdilər və onların kahinləri qurbanlıq vaxtı su, bal və gülab çiləyirdilər. Tarixdə insanların belə qurbanlıqlarda təkcə qoyun və heyvanları kəsməklə kifayətlənmədikləri, hətta bəzən insanları qurbanlıq ünvanı ilə zibh edib kəsdikləri qeyd olunur.

Finikiyalılar, kənanilər, farslar, rumlular və misirlilərin bir qisminin də belə adəti var idi. Nəhayət, 657-ci ildə rumluların əyan və əşrəf məclisi bu növ qurbanlığı qadağan etdi.

Nəql olunur ki, misirlilərin öz bütxanalarına ehtiram göstərməkdən ötrü hər ilin isti ayında, Nil çayında bir qızı bəzədikdən sonra onu suda qərq edirdilər. Bu adət misirlilərdə hələ də davam edirdi. Ta ki, buraya İslam gələnə qədər.

Əslində qurbanlıq həm şəri və həm də əqli bir işdir. Qurban kəsmək - ruhun paklanması və cəmiyyətin iqtisadiyyatının möhkəmlənməsində böyük rol oynayır. Mübarək hədislərimizdə hər iki mövzuya aid göstəriş verilmişdir. Peyğəmbərimiz (s) buyurub: **"Allah Təala bu qurbanlığı yoxsulların iqtisadi vəziyyətlərinin yaxşılaşmasından ötrü qərar vermişdir. Onlara bu ətdən yedirdin". Həzrət Əli (ə) isə belə buyurub: "Əgər insanlar bilsəydilər ki, qurbanlıqda hansı əzəmət var, borc alıb qurban kəsərdilər. Həqiqətən, qurbanlıqdan yerə tökülən ilk qətrə qan zamanı Allah qurban sahibinin günahlarından keçər".**

Sevindirici haldır ki, ölkəmizdə də hər il qurban kəsmək ənənəsi həyata keçirilir. Çox gözəl olar ki, Peyğəmbərimizin (s) buyurduğu kimi, kəsdiyimiz qurbanlıqlar ibadi əməllə yanaşı, ictimai bir əmələ də çevrilsin. (Məqalə, Qudrətullah Məşayixinin araşdırmasına əsasən işlənib)

Zemfira Nəsrullayeva

# TÖVHİDİN DƏRƏCƏLƏRİ

**İnsan üçün ən əsaslı, fundamental məsələlərdən biri Allahın varlığına inanmaqdır. Allaha etiqad bəsləmək və ya bəsləməmək insan həyatında olduqca mühüm bir rol oynayır. Belə ki, əgər insan hansısa bir dəlil əsasında Allahın varlığına inanarsa, bu, onun bütün hərəkət, davranış və əməllərində özünü əks etdirəcəkdir. Bunun əksi də doğrudur, yəni Allaha inanmayan kəsin də davranış və hərəkətləri xüsusi bir rənglə boyanacaqdır.**

Tövhid təməli üzərində qurulan həyat tərzi ilə onun üzərində qurulmayan həyat tərzi arasındakı fərq tamamilə diri ilə ölü arasındakı fərqə bənzəyir. Tövhid qəhrəmanı hz. Əli (ə) bu həqiqətə işarə edərək belə buyurur: "Tövhid ruhun həyatıdır".

Rənglər öz aralarında dərəcələrə bölündüyü kimi, tövhid də dərəcələrə bölünür. Məntiqi dillə ifadə etsək, rəng "təşkik (dərəcəlilik)" kateqoriyasına daxil olduğu kimi, tövhid də bu kateqoriyaya daxildir. Məsələn, "ağ" rəngi xarici aləmdə əşyalara, nəsnələrə eyni dərəcədə şamil olmur. Belə ki, bəzi əşyalar xaricdə ağ, bəziləri daha ağ, bəziləri isə daha da ağ olur. Ağ rəngi sonda elə bir dərəcəyə çatır ki, ondan daha yüksək bir ağlıq təsəvvür etmək belə mümkün olmur. Tövhid də eyni ilə ağ rəngi kimi dərəcələrə bölünür. Bu mənada, tövhidi aşağıdakı dərəcələrə ayıra bilərik:

1. Sözdə tövhid;
2. Təsdiqdə tövhid;
3. Yəqində tövhid;
4. Kəşfdə tövhid.

"Sözdə tövhid" dedikdə, təkcə zahiri dildə tövhidi qəbul etmək nəzərdə tutulur. Bu dərəcə yalnız münafiq və tövhidi məcburiyyət qarşısında zahirən qəbul edən adamlara aid olur. Tövhidin bu dərəcəsi onları yalnız bu dünyada qoruyaraq, İslam şəriəti nöqteyi-nəzərindən onlar üçün can, mal, namus və ləyaqət toxunulmazlığını təmin edir. Əslində, deyilən bu dərəcəni tövhidin dərəcələrindən biri kimi saymaq məcazi olardı, çünki əslində, bu dərəcə sahibləri tövhidi inkar edənlərin sırasına daxildir və həqiqətən, tövhidi qəlbən, içdən qəbul etmirlər. Sadəcə olaraq, dilləri ilə tövhidçi, tövhid ardıcılı olduqlarını iddia edirlər.

"Təsdiqdə tövhid" dedikdə isə, hər hansı bir sübut və dəlillə tövhidə inanan, iman edən kəslər nəzərdə tutulur. Tövhidin bu dərəcəsini, divarın arxasından göyə yüksələn tüstü vasitəsi ilə divarın arxasındakı yanan odun varlığına inanan şəxsin sahib olduğu yəqinə bənzətmək olar. Əksər dindarların, inanclıların etiqad bəslədiyi tövhid bu dərəcədə yerləşir. Bu dərəcə dünyada onlar üçün şəriət nöqteyi-nəzərindın can, mal, namus və ləyaqət toxunulmazlığını təmin etdiyi kimi, tövhidin tələblərinə əməl etdikləri təqdirdə dünyadan köçsələr, axirətdə də ilahi əzabdan amanda qalacaqlar.

İnsan "yəqində tövhid"ə nail olduqda, öz yəqini ilə Haqqın nurunu müşahidə edir. Məxluqatlara, yaradılışlara baxdıqda onları "çoxluq" şəkilində müşahidə etsələr də, onların varlıq aləminə qədəm qoymalarının səbəbini vahid varlıqdan, yəni Uca Tanrıdan bilirlər. Tövhidin bu dərəcəsini, divarın üzərinə çıxaraq, əyani şəkildə, yanan odun özünü müşahidə etməklə onun varlığına inanan kəsin malik olduğu yəqinə bənzətmək olar. Tövhiddə belə bir dərəcəyə yüksələn şəxslərə "yəqin əhli" deyilir.

Adam "kəşfdə tövhid"ə yetişdikdə isə, yaradılış aləmində yalnız vahid bir varlıq görməyə başlayır. Ona görə ki, tövhiddə fani olduğu, əridiyi üçün, yəni təkcə "vahid varlığı" müşahidə etdiyi üçün, artıq, özünü belə görmür. "Vahid"lə bütün yaradılışlardan, hətta özündən belə qafil, xəbərsiz olur. Bu zaman insan Onu məxluqatlarla müşahidə etmir ki, onları nəzərdən keçirməklə Yaradıcını kəşf etmiş olsun. Əksinə, məxluqatları Onunla müşahidə edir. Belə ki, Yaradıcıya baxmaqla Onun məxluqunun olduğuna varır. Tövhiddə belə zirvəni, dərəcəni qət edənlərə "Şühud və fəna əhli" deyilir.

Obrazlı ifadə etsək, yuxarıda qeyd olunan tövhidin dörd dərəcəsini eyni ilə qozdakı dörd hissəyə bənzətmək olar. Bildiyimiz kimi, qozun üstəki göy qabığında heç bir fayda olmur. Belə ki, dadı acı, görünüşü isə xoşagəlməzdir. Yandırılan zaman tüstüsü hər yeri bürüyər, yerə atılan zamansa hər yeri çirkləndirər. Ancaq buna rəğmən, qozun məğzini qoruyan altdakı möhkəm qabığı qoruyub saxlayır. "Sözdə tövhid" də münafiq adamın bədənini, qozun üstəki göy qabığının altdakı möhkəm qabığı qoruduğu kimi yalnız dünyada qoruyar, axirətdə isə heç bir dərdinə dəyməz.

Qozun altdakı möhkəm qabığının faydası məlumdur. Belə ki, o, qozun məğzini xarab olmaqdan qoruyaraq, onu dərilmə vaxtınacan saxlayar. Sonra isə ondan qoparaq yanacaq və bu kimi şeylərdə ondan istifadə olunar. Ancaq qozun məğzi ilə müqayisədə onun faydası azdır. Bu əsasla, "təsdiqdə tövhid" "yəqində tövhid"lə müqayisədə aşağı dərəcədə durur və natamam hesab olunur.

Qozun məğzi və məğzdən alınan yağın da faydası hamıya




aydındır. Məğz öz-özlüyündə alt qabığa münasibətdə nəfis olmasına baxmayaraq, ondan (məğzdən) alınan dumduru, xalis, saf yağla müqayisədə çöküntü və qatışıqdan xali deyil.

Allaha yaxın olan bəndələrin etiqad bəslədiyi “yəqində tövhid” qozun məğzinə, təkcə Haqqı müşahidə etməklə “çoxluq” bataqlığından xilas olub vəhdət dəryasına dalan bəndələrin inandığı “kəşfdə tövhid” isə qozun məğzindən alınan saf və xalis yağa bənzəyir.

Əhli-beyt imamlarının deyim və buyuruqlarında tövhidin bu yüksək zirvəsi “tövhiddə ixlas” kimi keçir. Nümunə olaraq burada imam Əlinin (ə) Nəhcül-bəlağədəki xütbəsinin bir fraqmentini və imam Səccadın (ə) Səccadiyyə səhifəsindəki duanın bir hissəsini qeyd etmək istərdim: “Dinin əvvəli Allahı tanımaq, tanımağın kamalı onu təsdiqləmək, təsdiqləməyin kamalı onu yeganələşdirmək (=tövhid), yeganələşdirməyin kamalı onu xalisləşdirmək və xalisləşdirməyin kamalı isə sifətləri ondan inkar etməkdir”.

Hz. Əli (ə) bu sonuncu gözəl ifadəsi ilə tövhidin ən yüksək zirvəsini insanlar üçün şərh etmişdir.

İmam Səccad (ə) isə belə buyurur: “Bütün həmd və sənalar Allaha məxsusdur. Çünki O, özünü bizə tanıtdırmış, öz şükrünü bizə ilham etmiş, öz rəbbliyinə olan elm qapılarını bizim üzümüzə açmış və bizi öz tövhidində ixlasa (yəni, xalisləşdirməyə) yönəltmişdir”.

Ariflər də öz növbəsində nəzəri-irfani tədqiqatlarında tövhidin yüksək zirvəsindən bəhs ediblər. Onlar Allaha doğru gedən yolu dörd ilahi səfərə ayıraraq, birinci səfəri “məxluqdan Haqqa doğru getmək” səfəri sayıb, onun üçün doqquz mərhələ qeyd ediblər. Birinci üç mərhələ səfərin başlanğıcı, ikinci üç mərhələ başlanğıcdan sona keçmək və sonuncu üç mərhələ isə məqsədə çatmaqdan ibarətdir.

İbn Sina “İşarələr və qeydlər” adlı fəlsəfi əsərinin ariflərin məqamları bölməsində yuxarıda qeyd etdiyimiz birinci ilahi səfərin doqquz mərhələsini üç dərəcəyə bölərək, hər bir dərəcəni üç mərtəbədən ibarət bilmişdir. İbn Sinanın təsnifatında üçüncü dərəcənin ikinci mərtəbəsi adlanan “Tərəddüd” tövhidin üçüncü dərəcəsi sayılan “Yəqində tövhid”ə, üçüncü dərəcənin üçüncü mərtəbəsi adlanan “Vüsul(nail olmaq)” isə tövhidin dördüncü dərəcəsi sayılan “Kəşfdə tövhid”ə işarədir.

Emin İmanlı

# İFADƏ AZADLIĞI,
## YOXSA SÜBUTLU İFADƏ AZADLIĞI?

(ETÜD)

Məlum olduğu kimi, bu gün modern dünyada “ifadə azadlığı” adlı bir nəsnə var. Demokratiya tərəfdarı olan hər bir adam bu prinsipi qəbul edib, onun müdafiəsinə qalxır. Onlara görə, bu, hər bir insanın fundamental hüquqları sırasına daxildir. Hər bir müddəada olduğu kimi, bu prinsipin də əsaslandığı bir önfərziyyə var, ancaq bu, elə də əsaslı, məqbul bir önfərziyyə deyil. İfadə azadlığı prinsipinin söykəndiyi önfərziyyə ondan ibarətdir ki, hər bir adam ürəyi nə istəyirsə, onu da ifadə edə bilər. Bu isə o deməkdir ki, müxatəbin (dinləyicinin, tamaşaçının, oxucunun) zehni tullantı, zibil qabıdır, belə ki, hər nə düşüncə istənildisə, oraya tökülə və atıla bilər. Belə bir önfərziyyə üzərində qurulan ifadə azadlığı məntiqi baxımdan nə dərəcədə müdafiə oluna bilər? Sizcə, belə bir önfərziyyəni məntiqi sübutla



əsaslandırmaq olarmı? Zənnimcə, siz də bir realist kimi mənə qatılıb, sözügedən suala birmənalı olaraq mənfi cavab verəcəksiniz. Nədən? Ən azı ona görə ki, qeyd olunan önfərziyyədə ciddi məntiqi boşluqlar var və kimsə də bu boşluqları doldura bilməz. Bəs, onda nə etməli? İfadə azadlığı prinsipini danmalıyıqmı? Çıxış yolu nədir onda? Bəzi mütəfəkkirlər haqlı olaraq, adıkeçən prinsipə qarşı alternativ kimi “sübutlu ifadə azadlığı” prinsipini təklif edirlər. Bu isə o deməkdir ki, insan təkcə sübuta əsaslanan ifadə azadlığını müdafiə etməlidir, vəssəlam. Bu alternativ prinsipin önfərziyyəsi ondan ibarətdir ki, insan “sübutmərkəzli” bir varlıqdır, onu ancaq sübutla qane etmək mümkündür. Buna görə də, müxatəbin zehni tullantı, zibil qabı deyil ki, hər nə cəfəngiyat, mövhumat, xürafat, nağıl gəldi, ortaya atılsın. Başqa sözlə, sübutlu ifadə azadlığı prinsipi, əslində, insan zehinə qarşı sayğı, hörmət sərgiləyir. Bu prinsipə görə, ifadə etdiyi fikirə, düşüncəyə sübutu olan hər bir kəs azadcasına ifadə edə və hamı onunla müxalifətçilik edə bilər, ancaq bu müxalifətçilik sübutla həyata keçməlidir, başqa yollarla yox. Deməli, kimsə öz düşüncəsinin lehinə sübutu varsa və ya başqasının düşüncəsinin əleyhinə sübutu varsa, onu azadcasına ifadə edə bilər, çünki ifadə azadlığı onun fundamental hüquqları sırasına daxildir, amma bu hüquq sağlam və məntiqli önfərziyyə üzərində qurulan bir hüquq olmalıdır ki, bunu da təkcə sübutlu ifadə azadlığı təmin edə bilər.

Emin İmanlı



# HZ. ƏLİNİN (Ə) MƏZİYYƏTLƏRİ [I]

**Mərhəmətli, rəhimli Allahın adı ilə! Hz. Əlinin (ə.s) Peyğəmbərdən (s) sonra ən üstün insan olduğunu isbatlayan ən dəyərli kitablardan biri də "Əl-Meyar vəl-Muvazinə" əsəridir. Əbu Cəfər İskafi Bağdadda yaşayıb və mötəzilə məzhəbinə mənsubdur. O və digər Bağdadın mötəzilə alimləri Əlini (ə.s) Peyğəmbər (s) müstəsna olmaqla hamıdan üstün bilirlər. Qeyd etmək lazımdır ki, mötəzilə məzhəbi Əlini (ə.s) üstün hesab etdiklərinə baxmayaraq Əbu Bəkr, Ömər və Osmanın xəlifəliyini qəbul edirlər. Şiə alimləri bu etiqadın əsassız olduğunu isbat etmək üçün müxtəlif kitablar yazdı. Muhəmməd bin Əli bin Noman "Ər-rəddu ələl-mötəzilə fi imamətil-məfzul" kitabını və şeyx Müfidin (dördüncü əsrin sonu və beşinci əsrin ilk onluğunda bu barədə yazdığı müxtəlif kitabları; "Əl-ifsah", "Əl-izah" və "Ən-nəssul-cəli" misal çəkmək olar.**

Əbu Cəfər İskafi üçüncü əsrin birinci yarısında yaşayıb və mötəzilə məzhəbinin məşhur alimlərindən hesab olunur. İyirmi iki kitab müəllifidir. İbn Nədim öz "Fehrest" kitabında onun kitablarının siyahısını qeyd etmişdir. İki kitabı Əlinin (ə.s) üstünlüyünə həsr olunmuş və Onun fəzilətləri barədə yazılmışdır.

İbn Əbil Hədid "Nəhcül-Bəlağənin" 57-ci xütbəsinin şərhində İskafi barədə yazır: "Şeyximiz Əbu Cəfər İskafi həqiqətən Əlini (ə.s) sevməkdə və onu üstün bilməkdə mübaliğə edənlərdəndir. Bağdad mötəzilələri Əlini üstün saymaqda məşhurdurlar. Amma Əbu Cəfərin əqidəsi daha ixlaslı görünür". "Əl-Məqamat fi təfzili Əli (ə.s)" kitabı Əbu Cəfərin dördüncü kitabıdır və seyyid Rəzi o kitabdan çox bəhrələnmişdir. "Əl-Meyar vəl-Muvazinə" kitabı müəllifin digər kitabları kimi ona ünvanlanan çoxlu sayda suallardan sonra yazılmışdır. Müəllif və kitab barədə bu qədər tanışlıqla kifayətlənib əsas mövzumuza keçid alırıq:

"Əl-meyar vəl-Muvazinə" kitabının birinci fəsli camaatın Əlidən (ə.s) üz çevirmələrinin səbəblərini araşdırır. Qeyd edir ki, başlıca səbəb toplum şəklini alan ədavətlər, kin-küdurət və cahiliyyət dövrünün təəssübkeşliyi idi.

Sonra böyük səhabələrdən nəql olunan və Hz. Əlinin (ə.s) üstünlüyünə dəlalət edən rəvayətləri nəql edib və həzrətin bütün yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik olduğunu vurğulayır. Əbu Cəfər əlavə edir: "Bu gün – hicri təqviminin üçüncü əsri- Bəni-Üməyyə padşahları aramızda yoxdur. Amma onların düşüncələrini davam etdirən camaat hələ də mövcuddur"

Müəllimlər məktəblərdə uşaqlara Əməvilərin düşüncələrini tədris edirdilər ki, uşaqlar bu düşüncələrlə böyüsünlər və hətta qocalanda belə bu növ düşüncələr



onların başından çıxmasın. Belə ki, tədris üçün xüsusi kitabçalar hazırlanırdı və orada xəlifələrin adlarını – Əbu Bəkr ibn Əbi Qəhafə, Ömər ibn Xəttab, Osman ibn Offan və Muaviyə ibn Əbi Sufyan – bu ardıcıllıqla yazılırdı və Əli ibn Əbi Talibin (ə.s) adı yazılmırdı, beləliklə avam adamlar Əlini (ə.s) tanımadı və hətta Əlidən heç bir sözü dilə gətirmədilər.

(Ayətullah Safi Qulpayqani "Əmanul-umməti minəzzəlali vəl-ixtilaf" kitabında Müaviyənin siyasətini izah edib. Qeyd edir ki, Müaviyə əslində Hz Peyğəmbərlə (s) düşmən idi. Onun adını, dinini və Əhli-beytini məhv etmək üçün əlindən gələni etdi. Əhli-sünnə mənbələrində Müaviyənin mənfur siyasəti və siyasətinin icrası barədə nümunələr nəql edir. Bəzi yerlərdə "Allah və Peyğəmbərindən (s) həya edirəm"- yazıb Müaviyənin etdiklərini açıqlamayıb. Əlavə edir ki, Bəni Üməyyə və Bəni Abbasi xəlifələrinin siyasətləri nəticəsində camaat Peyğəmbərin Əhli-beytini tanımadı və onların hədislərini eşitmədilər və o hədislərə istinad etmədilər...)

Muhəmməd bin Hənəfiyyədən nəql olunan rəvayət də bu iddianın dəlili sayıla bilər. Bildirilir ki, "Cəməl" döyüşündə Muhəmməd bir kişiyə hücum edir, nizəni ona sancmaq istəyəndə o kişi deyir: "Mən Ömər ibn Əbi Talibin dinindəyəm!". Muhəmməd onun "Əli ibn Əbi Talib"- demək istədiyini başa düşür və onu öldürmək fikrindən vaz keçir.

Kitabın ikinci fəslində Əbu Cəfər Hz. Əlinin (ə.s) üstünlüyünə dəlalət edən və böyük səhabələrdən nəql olunan hədisləri araşdırır və əlavə edir ki, hərçənd ki, Əbu Bəkrin və Ömərin üstün olmasına dair hədislər də var. Amma Əlinin (ə.s) üstünlüyünə aid olan hədislər say baxımından çox, keyfiyyət baxımından isə mötəbərdir. Camaata Müaviyəni "möminlərin dayısı" kimi tanıtdırdılar. Əli (ə.s) Müaviyə ilə müharibə etdiyinə görə camaat Əliyə qarşı çıxdı və ona qarşı ədavətli oldular. Camaat Ayişə,

Təlhə və Zubeyrə xatir Əlinin (ə.s) imamlığını inkar etdilər. Halbuki, həmin şəxslər Əlinin (ə.s) imaməti mövzusunda camaatı şəkk-şübhəyə saldılar.

İkinci fəslin xülasəsi belədir ki, hakimiyyətin (məxsusən Müaviyənin) mənfi təbliğatları nəticəsində camaat Əlidən (ə.s) üz çevirdilər.

Üçüncü fəsildə Hz. Əlini (ə.s) ondan qabaqkı xəlifələrlə müqayisə edib yazır: "Siz özünüz Əlinin (ə.s) işlərinin dürüst olmasını, haqq əməlləri yerinə yetirilməsində onun israrını, nəfsani istəklərə müvafiq olan əməllərdən çəkinməsini, qəzəbini və hiddətini söndürmək üçün lazım olan səbrini nəql etdiniz ki, heç bir ağıl sahibinə gizli deyil!"

Müəllif yazır: Əlini (ə.s) İsa peyğəmbərə (ə.s) bənzətmək olar. Belə ki, İsanın ümməti iki hissəyə bölündü: Bəziləri onu həddindən artıq üstün tutub ona pərəstiş etdilər. Bəziləri isə əksinə, onu lənətlədilər. Əli (ə.s) barədə də "Əliallahlılar- Əlinin məhəbbətində ifrata varanlar" İsa barədə ifrat edənlər kimidir. Murciə isə Əliyə qarşı kinli idilər və onlar İsaya qarşı kinli və ədavətli olan Yəhudilərə bənzəyirlər. Hz Peyğəmbər (s) Əliyə (ə.s) buyurduğu hədislərdəndir ki, "sənin barəndə iki dəstə (qrup) insanlar həlak olar; Məhəbbətdə ifrata varanlar və kində (ədavətdə) ifrata varanlar".

Rey, Bəsrə və Şam şəhərlərində yaşayan nasibilər də Əlini (ə.s) doğru tanımaqda səhlənkarlıq etdilər.

Müəllif əlavə edir: Əliyə (ə.s) qarşı kin-küdurət və barəsində aparılan mənfi təbliğatlara görə Əliyə yuxarıdan aşağı baxmaq istəyənlər bilsinlər ki, bütün bunlar onun nöqsanına deyil, əslində onun fəzilətlərinə (üstünlüyünə) dəlalət edir. Həzrətin çoxlu müxaliflərinin olması və müharibələrdə öz əhd-peymanlarına vəfa etməyənlərin əməlləri Əlidə müharibə siyasətinin olmamasına işarədir – deyirlər. Amma bu ona qarşı zülüm və ifrat dərəcədə insafsızlıqdır. Çünki, onlar etdiyi əməllərinə heç bir tutarlı dəlil tapmadıqlarına görə bu minvalla özlərinə bəraət qazandırmaq istəyirdilər.

Sonra müəllif hər dörd xəlifənin xəlifəliyə seçilməsini araşdırır və Əlinin (ə.s) xəlifəliyə seçilməsini ən doğru üslubla həyata keçdiyini vurğulayır. (Bu mövzuda yazdıqlarını müəyyən səbəblər üzündən tərcümə və şərh etmirik. Ətraflı məlumat toplamaq üçün oxucu özü "Əl-meyar vəl-Muvazinə" səh 44-49 müraciət edə bilər).

Müəllif yazır: "Siz bilirsiniz ki, bütün üstün (əfzəl) insanların üstünlüyü bundan ibarətdir ki, başqa insanların malik olduğu pərakəndə halda olan yaxşılıqlar və bəyənilmiş işlərin hamısını özündə toplayıb…"

Hz. Əlinin (ə.s) üstünlüyünə dəlalət edən səciyyələrini təqdim edirik:

**Birinci:** Allaha, Onun dininə, tövhidə elmi olan və tövhiddən üz döndərənlərin müqabilində tutarlı dəlillərlə dayana bilməkdir.

Bu üstünlük barədə Qurani-Kərim buyurur: "…Heç bilənlərlə bilməyənlər (alimlə cahil) eyni ola bilərmi?!..." (1) "Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə (haqqı görməyən) korla eyni ola bilərmi?" (2) "Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar. (Onlar elm sahibi olduqları üçün Allahın vəhdaniyyətini, heybət və əzəmətini daha yaxşı başa düşür və Ondan daha çox qorxurlar)." (3)

**İkinci:** Hamıdan qabaq islamı qəbul etmək də üstünlük amili sayılır.

Qurani-Kərim: "…Sizlərdən (mal-dövlətini) fəthdən (Məkkənin fəthindən) əvvəl (Allah yolunda) sərf edənlər və (müşriklərə qarşı) vuruşanlar (başqaları ilə) eyni deyillər. Onlar (mallarını Allah yolunda) fəthdən sonra sərf edib döyüşənlərdən dərəcə etibarilə daha üstündürlər. Bununla belə, Allah onların hamısına (həm birincilərə, həm də ikincilərə) ən gözəl mükafat (Cənnət) vəd buyurmuşdur…" (4)

**Üçüncü:** Allahın düşmənləri ilə cihad etmək. Qurani-Kərim: "Zərər çəkmədən (üzürsüz səbəbə görə evlərində) əyləşən möminlərlə Allah yolunda öz malları və canları ilə cihad edən (vuruşan) kimsələr bir olmazlar. Allah malları və canları ilə vuruşanları (evlərində) əyləşənlərdən (cihada getməyənlərdən) dərəcə etibarilə üstün tutdu…" (5) "Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır…" (6)

**Dördüncü:** Çətinliklərdə səbr etmək və qəzəb atəşinə su səpməyi bacarmaq:

Qurani-Kərim buyurur: "…Dar ayaqda, çətinlikdə (ehtiyac, yaxud xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbr edənlərdir…" (7) "Ey iman gətirənlər! (Dində vacib olan hökmləri yerinə yetirməyin zəhmətinə, düçar olduğunuz bəlalara) səbr edin, (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüşlərdə sizə üz verən müsibət və çətinliklərə) dözün, (sərhəd boyu növbədə durub cihada) hazır olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!" (8) "Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbr edən şəxslərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: "Biz Allahınıq (Allahın bəndələriyik) və Ona tərəf (Onun dərgahına) qayıdacağıq!" deyirlər." (9) "Peyğəmbərlərdən əzm (və səbat, şəriət) sahibləri olanların səbr etdiyi kimi, sən də (Allah yolunda çətinliklərə, əziyyətlərə) səbr et…" (10) "…Qəzəblərini udar, insanların günahlarından keçərlər…" (11)

Zöhd və təqva ilə ibadət etmək, oruc tutmaq, namaz qılmaq və xeyirli işlər görməyə tələsmək kimi Qurani-Kərimdə adı çəkilən və barəsində çoxlu sayda ayələr olan əməllər də üstünlük amilidir (fəzilətlərdir). Bu sifətlərə malik olan şəxs əlbəttə ki, digərlərindən üstündür.

Sonra müəllif Hz. Əlinin (ə.s) hamıdan qabaq müsəlman olmasını vurğulayır. Əlavə edir ki, insanlar həddi-büluğa çatma mərhələsində fərqlidir. Hamının qəbul etdiyi həqiqət budur ki, Əli (ə.s) Əbu Bəkrdən qabaq islamı qəbul etmişdir. Amma bəzi sünnilər iddia edirlər ki, Əli

(ə.s) islamı qəbul edəndə on beş yaşı tamam olmamışdı. Yəni uşaq ikən müsəlman olub və bunun əhəmiyyətsiz olduğunu deyirlər.

Müəllif onların cavabında yazır ki, "on beş yaş büluğun (yetkinlik yaşının) həddi-hüdudu və başlanğıcı və sonu var. On beş, həddi-büluğun son yaş həddidir. Həddi-bülugun başlanğıcını Allah və Onun Peyğəmbəri (s) bilir..." Müəllif bu minvalla Hz. Əlini (ə.s) hamıdan qabaq islamı qəbul edən şəxs kimi tanıtdırır və bu xüsusiyyəti imam üçün məziyyət hesab edir.

Əbu Cəfər mövzunun davamında Əlinin (ə.s) həddi-büluğa çatmamış (on beş yaşına çatmamış) gördüyü işləri, yerinə yetirdiyi əməlləri və buyurduğu mübarək sözləri misal çəkir və əlavə edir ki, belə işləri həddi-büluğa çatmamış adi uşaq edə bilməz.

Müəllif əlavə edir ki, Əlinin (ə.s) müsəlman olduğu dövrü də nəzərə alsaq bu baxımdan da Əbu Bəkrdən üstündür. Çünki, maddi vəziyyətinin yaxşı olmadığı bir vaxtda İslamı qəbul etdi, bütün çətinliklərə dözdü və bu üzdən hikmət (elm) qəlbindən dilinə cari oldu.

"Əlinin (ə.s) sözlərini düşünün, onun xüsusiyyətlərini tanıyın və bilin ki, onun yenilməz mərifəti onu bu dərəcəyə çatdırmışdır. Bu Əlidir (ə.s) ki, alimlərin səbri və onların görəcəkləri dünya müsibətlərini Kumeyl ibn Ziyada danışır.

Kumeyl ibn Ziyad deyir: Əmirəl-möminin Əli ibn Əbu Talib mənim əlimdən tutub məni səhraya apardı. Şəhərin kənarına çatanda bəlaya düşmüş şəxs kimi bir ah çəkdi. Sonra (elm və alimlər barəsində belə) buyurdu: "Ey Kumeyl ibn Ziyad! Həqiqətən korluğun əsasını təşkil edən ilk şəxs, təəssüblə cəhlə əl uzadan və qələbə çaldığını güman edən, dəlil və haqqın hökmlərini tapdayan şəxsdir..."

"Ey Kumeyl ibn Ziyad! Bu qəlblər qabdır (elm, həqiqət və sirlərin qablarıdır) və onların ən yaxşısı daha yaxşı saxlayanıdır (ona tapşırılan şeyi daha yaxşı qoruyaraq yadda saxlayanıdır). Buna görə də (diqqətli ol və) sənə dediklərimi qoruyaraq yaxşı saxla: İnsanlar üç qisimdirlər: Rəbbani və ilahi alim (yaradılışın başlanğıc və sonundan xəbərdar olub ona əməl edən, Allahı tanıyan alim); (cəhalət və nadanlıqdan) nicat və qurtuluş tapmaq yolunda olan elm axtaran və öyrənən; kiçik və zəif "milçəklər" (müxtəlif çirkinliklərə bulaşmış nadan və qanmaz) ki, hər çağıranın arxasınca (hər yola) gedir və hər küləklə bir tərəfə əyilirlər (düzü əyridən seçmirlər, heç bir yolda sabitqədəm deyildirlər və qarşıya çıxan hər bir yola gedirlər), elm nurundan işıq götürməyiblər (nadanlıq zülmətində qalıblar) və möhkəm sütuna (ağıl və elm sütunları üzərində dayanan haqq əqidəyə) sığınmayıblar (onları öyrənməyiblər və azdırıcı insanların arxasınca düşüblər).

Ey Kumeyl, elm maldan daha yaxşıdır. (Çünki) elm səni (dünya və axirət çətinliklərindən) qoruyur, malı isə (məhv olmaqdan) sən qoruyursan. Bağışlamaq malı azaldır, elm isə bağışlamaq (başqasına öyrətmək) nəticəsində artır...

Ey Kumeyl ibn Ziyad, elmlə tanışlıq və onu əldə etmək dindir ki, (qiyamət günü) ona görə savab və mükafat verilər. İnsan elmlə öz həyatında (Allah, Peyğəmbər və dini imam və rəhbərlərə) itaət və tabeçiliyi, ölümdən sonra isə yaxşı və gözəl sözləri (xalqın onun barəsindəki xoş danışıqlarını) əldə edir. Elm hökm edən, mal isə hökmə tabe olan və məğlubdur (mal əldən-ələ keçir və zavala uğrayır, elm isə bərqərar və qalandır).

Ey Kumeyl ibn Ziyad, sərvət toplayanlar diri olmalarına baxmayaraq, həlak olublar (onlar diri olsalar da qürur və azğınlıq onları məhv edəcəkdir). Alimlər, zaman durduqca duracaqlar. Onların vücudları (bu dünya ilə vidalaşmaqla) itib, surətləri isə (xalqın onlar barəsində olan gözəl və xoşagələn xatirələri nəticəsində) qəlblərdə bərqərardır. Bil ki, (mübarək əli ilə sinəsinə işarə edib) burada çoxlu elm var, əgər onun üçün onu öyrənən şəxslər tapa bilsəydim! Bəli, zehni iti olan tapıram, amma (həmin elmlər barəsində) ondan xatircəm deyiləm. (Çünki) o, dini vasitələri dünya üçün istifadə edir və Allahın nemətləri (elm və mərifət əldə etmək nailiyyəti) ilə Onun bəndələrinə və dəlilləri (ağıl və düşüncə) ilə Onun dostlarına lovğalıq edir. Yaxud elm əhlinə itaətcil (danışıq və davranışında tabe) olan birini tapıram, amma onun (da) öz ətrafı barəsində gözüaçıqlıq və ayıqlığı yoxdur; qarşıya çıxan ilk şübhə onun qəlbində əks şəkk və güman alovu şölələndirir. Bil ki, nə bu (bəsirətsiz tabe olan kəs) layiqdir (əmanət və həqiqi elm əhlidir), nə də o (iti zehinli). Yaxud da ləzzət və kefdə ifrata varan və asanlıqla şəhvətə və nəfsi istəyinə tabe olan bir kəs tapıram. Ya da (dünya malı və sərvət) toplamaq və yığmaq vurğunu olan bir kəsi! Bu iki nəfər də dini hər hansı bir işdə qoruyanlardan deyildirlər. Bunların ikisinə ən yaxın misal otlayan dördayaqlılardır. Belə bir dövrdə elm, daşıyıcısı və qoruyanının ölümü ilə ölür (məhv olub aradan gedir).

Sonra buyurdu: "Ey Kumeyl, istəyirsənsə qayıt".

Kumeyl deyir: "Allaha and olsun ki, Əli (ə.s) bütün bəyənilmiş sifətlərin başıdır. Bu üzdən Allah yolunda bütün çətinliklər onun üçün asan olur, qorxu və vəhşət halında Allaha sığınırdı və Onunla ünsiyyət qururdu. Bunlara görə Allah onun vasitəsi ilə öz bürhan və hüccətini saxladı".

Əbu Cəfər İskafi Kumeyl ibn Ziyaddan nəql olunan və Nəhcül-Bəlağənin 147-ci hikməti kimi yer alan Hz. Əlinin (ə.s) nurani kəlamlarını nəql etməklə bir daha o həzrətin üstünlüyünü isbatlamış olur. (12)

...(davamı var ...)


1-Zümər surəsi, 9-cu ayə.
2- Rəd surəsi, 19-cu ayə.
3- Fatir surəsi, 28-ci ayə.
4- Hədid surəsi, 10-cu ayə.
5- Nisa surəsi, 95-ci ayə.
6- Tövbə surəsi, 111-ci ayə.
7- Bəqərə surəsi, 177-ci ayə.
8- Ali-İmran surəsi, 200-cü ayə.
9- Bəqərə surəsi, 155 və 156-cı ayələr.
10- Əhqaf surəsi, 35-ci ayə.
11- Ali-İmran surəsi, 134-cü ayə.
12- "Əl-Meyaru vəl-Muvazinə" səh: 63-87.


Hazırladı: Ə. Şəhriyar

# İMANLI İNSAN tərki-dünya olmamalıdır



***Bismillahir-Rəhmanir-Rəhim!***

***Günümüzün ən aktual mövzularından biri ruzi ilə bağlıdır. Ələlxüsus da həm dünyada, həm də ölkədə obyektiv və subyektiv səbəblərdən baş verən bahalaşma prosesi fonunda bu mövzunun gündəmə gəlməsi aktuallaşmışdır. Və ümumilikdə də son illərdə bu mövzu vaxtaşırı olaraq müzakirə mövzusu olmaqdadır. İlk növbədə, bu, mübarək dinimizin tərki-dünyalığı rədd etməsi fonunda gedən müzakirələrin mərkəzi mövzusu kimi çıxış edir.***

**Tərki-dünyalığın dinimizə aidiyyəti yoxdur**

Bəzən inanclı insanların daxilinə müəyyən viruslar buraxılmağa cəhd edilir ki, işləməklə bağlı, qazanc əldə etməklə bağlı möminlərdə süstlük yaransın. Bu «virusların» mahiyyəti ibadətin yalnız məhdud ayinlərin icrasından ibarət olmasını aşılamaqdan ibarətdir. İnanclı çevrəsinə nisbətdə insanları istər oxumaqdan, istər işləməkdən pisikdirmək, tərki-dünyalığa üstünlük vermək cəhdləri zaman-zaman edilirdi.

Təbii ki, bütün bunların İslama bir aidiyyəti yoxdur. Mübarək dinimiz hər zaman tərki-dünyalığı pisləyir, insanın ictimada olmasını, halal ruzi qazanmasını istəyir. Amma, bəzən bu məsələnin ifratı da olur. Belə ki, qazanc ardınca getmək kimi məsələlər insanı o qədər məşğul edə bilir ki, insan dinin vacibi buyurduğu əməllərə kifayət qədər süst yanaşır.

Beləliklə, bu məsələnin ifratı və təfriti var. Ya insan özünü tamamilə işsiz-gücsüz, özünün yaratdığı ehtiyaclılıq içində görür, ya da ki, ruzi qazanmaq adı ilə hər şeyi buraxıb, gecəsini-gündüzünü yalnız qazanc əldə etməyə həsr edir. Özü də ki, birinci halda insan özünü bir «müqəddəslik» örtüyünə də bürüyə bilir. İkinci halda isə, «yaxşı işlər görmək, xeyriyyəçilik etmək üçün çalışıram» bəhanəsilə özünü aldadır və bütün varlığını qazanc əldə etmək prosesinə həsr edir.

Qeyd etmək lazımdır ki, bahalaşma prosesi bu məsələlərə bir növ yeni impuls verməkdədir. Bir tərəfdən, bu bahalaşma, çətinləşmə fonunda kimsə bu tempə tab gətirməyib, «özümü dinə, ibadətə həsr edirəm» kimi düsturlarla tərki-dünyalığa üstünlük verəcək, çalışmağı, ruzi dalınca getməyi kənara qoyacaq.

Bunun digər ifratı isə öz vücudi suallarını cavablandırmaqdan, öz həqiqi missiyasını yerinə yetirməkdən çox, özünü bütövlükdə qazanca həsr etməyə meyilli insanların davranışı olacaqdır. Onlar tamamilə zombiləşəcək, özünü, ailəsini, yaxınlarını unudacaq, ictimada gedən proseslərə süst olacaq və bütün varlığının, mövcudiyyətinin mənasını pul əldə edib onu xərcləməkdə görəcək. Və eyni zamanda, özünə də hərdən elə gələcək ki, inancdadır, dindədir, yaxşı işlər görür.

**İlahi! Məni qəni et!**

Toxunduğumuz mövzuların Əhli-Beyt (ə) mənbələrində təqdimatı, bunlar barədə düzgün qərar verməyə çox böyük yardım edər. Həzrət İmam Səccad (ə) «Məkarimul-əxlaq» duasında Uca Rəbbdən belə diləyir: «Allahım! Məni qəni, imkanlı et və Sənin ruzini mənim üçün geniş et».

Gördüyümüz kimi, əziz İmam (ə) Allahdan ehtiyacsızlıq istəməyin yolunu göstərir, eyni zamanda ruzinin genişliyini bir nemət olaraq təqdim edir.

Eyni zamanda, həmin duanın davamında ruzi istəməyin sərhədləri göstərilir, imkanlılıq arzu etməyin istiqaməti verilir və burada yarana biləcək problemlərə işarə olunur: «Allahım! Məni (sərvət sahiblərinə) nəzər salmaqla imtahana çəkmə».

Göstərilir ki, imkanlılıq, qənilik, ruzi diləmək - yaxşı bir məsələdir. Amma, bununla yanaşı, başqa bir təhlükədən də insan çəkindirilir – digərinin sərvətinə nəzər salmaq, tamaha gəlmək kimi zəlalət gətirə biləcək xislətlərdən. Bu təhlükə insanlara çatdırılır, bir örnək olaraq onların müvafiq davranış konsepsiyası müəyyənləşdirilir. Başqalarının

imkanlarına, sərvətlərinə göz salmaq, tamaha gəlmək kimi işlərdən bəndə öz Yaradanına pənah aparır.

Yəni, bir tərəfdən dua edilir ki, «ey əziz Allahım! Ey əziz Rəbbim! İmkan mənbəyi Sənsən, ruzi mənbəyi Sənsən. Mənə imkan və ruzi nəsib et, verdiyin ruzini geniş et». Ruzi baxımından qənilik, insanlardan ehtiyacsızlıq istənilir Allahdan. İkinci tərəfdən bəndə tamaha mürtəkib olmaqdan qorxur, tamahın onun ruhiyyəsində qoyduğu öldürücü izləri nəzərə alıb, bu xislətin ondan uzaq olmasını istəyir: «Allahım! Məni digər insanların imkanlarına, sərvətlərinə, mallarına baxmaqdan çəkindir». Bəndə bu baxışları sadə bir şey saymır, bunu ağır imtahan hesab edir və bunun altına girmək iqtidarının ona aid olmamasını bəyan edir, bu ağır imtahanın ondan yan keçməsini istəyir: «Allahım! Məni bu baxışlarla imtahana çəkmə!

## Tamahla imtahan olunmamaq

Diqqət etsək, görərik ki, bu sözügedən baxmaqlıq, tamah nəzərlərilə kiminsə sərvətinə gözucu da olsa nəzər yetirmə - əslində günah üçün münbit bir şərait, günahlar üçün bir müqəddimə rolunu oynayır. Belə ki, tamah – insanın sonradan günahın ardınca getməyini şərtləndirən əsas amillərdəndir. İnsan nəyə tamahını salırsa, həmin şeyə malik olmaq hissi, həmin şeyin onda da olması arzusu onun bütün mənəvi durumunu yuyub aparır, haram yola qədəm qoymasını ciddi surətdə təmin edir.

Beləliklə, bizə aydın olur ki, qənilik, imkanlılıq istənilməlidir. Amma burada insan kimdən gəldi bunu istəməməlidir, kiminsə qarşısında belini əyməməlidir. Ruzi mənbəyi, ehtiyacsızlıq, qənilik mənbəyi – Uca Allahdır. Və çətinliklərin uzaq olması üçün insan Allahdan onu da istəyir ki, ona əta olunan ruzi bol olsun.

Onu da bildik ki, mübarək dinimiz digər insanların sərvətinə göz qoymağı ağır imtahanlardan sayır. Və ruzi ilə bağlı imtahandan şərəflə çıxmaq nə qədər yüksəliş verirsə, onun qabağından çəkilmək, təslimçilik əhval-ruhiyyəsinə malik olmaq da bir o qədər ruhi məşəqqət gətirən bir işdir.

İnsan tək bir baxdığını istəmir ki. Bu tamah baxışları insanda xeyli digər günahlara da yol açır. İnsan baxdıqca, nəzərlərini gödəltməyə özünü məcbur etmədikcə, onda asta-asta deqradasiya amilləri baş qaldırır.

## Ruzinin müqəddimələrinin nəsib olunması

Öncəki izzət mövzusunda olduğu kimi, ruzi istəmək məsələsi də insan tərəfindən ruzinin gəlib ona birbaşa yetişməsini istəmək demək deyil. Əslində söhbət, ruzinin yetişməsinin tofiqatının əta olunmasından gedir. Necə izzət mövzusunda insan özündən gələn nə varsa, iqtidarında, qüdrətində nə varsa onu edir və sonra Allaha təvəkkül edərək, sığınaraq, izzətin ona yetişməsini istəyir – ruzi məsələsi də elədir. İnsan çalışır, səy edir, işini düzgün qurur. Allah Təala da ona ruzini inayət edir. Əslində ruzi istəyən bəndə diləyir ki, «Allahım! Mənə çalışqanlığı nəsib et, bu çalışqanlığın davamlılığını, qalarlığını nəsib et, bunu əldə etməkdə Öz tofiqatını nəsib et!».



Və ikinci hissədə imtahandan qorunmağı, tamah sınağına çəkilməməyi istəmək də eləcə. Təbii ki, belə deyil ki, insan oturub baxacaq və imtahanlar öz-özünə ondan yan keçəcək. İnsan özü iradə etməlidir, niyyəti dəqiq olmalıdır. Kimsə gəlib onun niyyətini təmərküzləşdirməyəcək və müəyyənləşdirməyəcək. Və yaxud gəlib onun qəlbini açıb, oraya iradəni yerləşdirməyəcək. İnsan özü iradə edir, amma Allahdan bu iradənin bərəkətliliyini istəyir. Bu iradənin möhkəmləndirilməsini istəyir. Lənətlik iblisin vəsvəsəsindən amanda qalmasını istəyir.

Ümumilikdə götürsək, əslində insanın bütün bədbəxtçilikləri məhz nəfsini özbaşına buraxmasından başlanır, özgə malına tamah salmaqdan başlanır. Bir xislət olaraq, tamahı günahların hərəkətverici qüvvəsi kimi qiymətləndirə bilərik. Bu xisləti insan basa bilsə, digər rəzalətlərə də sinə gərə bilər.

## Ruzi dalınca getmək tövsiyələri

Mübarək dinimizin mətnlərinə nəzər salsaq, ruzi ilə bağlı təşviqedici xarakterli tövsiyələrin olduğunu görərik. Və bununla yanaşı, dünyaya bağlılığın pislənməsini də görərik. Yəni, halal ruzi dalınca getməyin tövsiyəsi ilə yanaşı, dünya malının əsirinə çevrilməyin zəlalət olması barədə xəbərdarlıqlar var. Bunları bir-bir ayırd edək ki, dinimizin bərəkətli tövsiyələrinin mahiyyətini qavraya bilək.

Əvvəl ona diqqət yetirək ki, ümumən İslam dini ruzi dalınca getməyi təşviq edir. Bəlkə heç bir məfkurədə, düşüncədə, dünyagörüşündə İslam dinində olduğu qədər ruzi ilə bağlı təşviqat yoxdur. Ən məşhur bir məsələ - ibadətin onda doqquzun ruzi qazanmaqdan ibarət olmasıdır. Böyük İslam Peyğəmbəri (s) buyurmuşdur: «İbadət on hissədir, onun doqquzu – halal ruzi axtarmaqdır».

Başqa bir yerdə görürük ki, ruzi dalınca getmək cihadda iştiraka bərabərləşdirilir. Rəsuli-Əkrəm (s) buyurur: «Ailəsinin dolanışığı üçün zəhmət çəkən şəxs, Allah yolunda mücahid kimidir».

Hətta halal ruzi qazanmaq o qədər böyük əhəmiyyət daşıyır ki, dinimiz bunu vacib əməllə bərabərləşdirir. Allah Elçisindən (s) nəql edirlər: «Halal ruzi qazanmaq hər müsəlman kişi və qadına vacibdir».

Ruzi qazanmaqdan irəli gələn yorğunluq – Mütəal Allahın sevdiyi xüsusiyyətlərdəndir. İslam Peyğəmbəri (s)




buyurmuşdur: «Allah Təala, bəndəsini halal ruzi qazanmaq yolunda yorğun görməyi sevər».

Qiyamət günündə, haqq-hesab çəkilən məqamda halal ruzi qazanan şəxsin aqibəti gözəl olacaqdır. Rəhmət Peyğəmbəri (s) buyurub: «Öz zəhməti ilə çörək yeyən şəxs, Sirat körpüsündən ildırım kimi keçəcək».

Başqa bir yerdə zəhməti ilə ruzi əldə edənə olan hörmətdən danışılır. Həzrət Peyğəmbər (s) buyurub: «Allah Təala öz zəhməti ilə çörək yeyən kəsə rəhmət nəzəri ilə baxar və heç vaxt ona əzab verməz».

### Bekar olmaq deqradasiyaya səbəb olur

Dinimiz ruzi əldə etməməyi, lənətlənmək üçün əsas kimi təqdim edir. Əziz İslam Peyğəmbərindən (s) sərt bir xəbərdarlıq vardır: «Öz ailəsinin xərcini təmin etməyən kəs məlundur, məlun!».

İmam Muhəmməd Baqirdən (ə) nəql edilən hədisdə avaraçılığın, bekarlığın dinimiz tərəfindən necə pislənməsi təsvir edilmişdir: «Həzrət Musa (ə) buyurdu: «Ya Rəbb! Bəndələrindən hansı biri Sənin dərgahında daha çox qəzəbinə səbəb olar?». Rəbb buyurdu: «O kəs ki, gecələri ölü kimi yatağında olar və gündüzləri avaraçılıqla keçirər».

Bekar olmaq, işsiz-gücsüz gəzmək dinimiz tərəfindən çox pislənmişdir. Əmirəlmöminin Həzrət Əli (ə) buyurur: «Əgər işlə məşğul olmaq zəhmətə və əziyyətə səbəb olursa, daimi bekarçılıq da nadürüstlüyə və fəsada səbəb olur».

Fəsad mühitinin əmələ gəlməsinin ən ciddi amillərindən biri – bekarçılıqdır. Bunun da ən birinci ünsürlərindən biri – öz məişətini, dolanışığını təmin etmək istəməyən insanlardır. Dinimiz belələrini çox tənbeh edir. İslam Peyğəmbəri (s) buyurur: «Məlundur, qovulmuşdur o kəs ki, öz yaşayış yükünü digərlərinin çiyninə atır».

### Peyğəmbərimizin (s) zəhmətkeşə göstərdiyi ehtiram

Ruzi qazanmağın ən böyük təşviqedici mətnlərindən biri, Peyğəmbərin (s) zəhmətkeşə göstərdiyi misilsiz ehtiramla bağlıdır. Ənəs ibn Malik nəql edir: «Rəsuli-Əkrəm (s) Təbuk döyüşündən qayıdırdı. Səd Ənsari onu qarşıladı. Həzrət (s) onunla görüşdü və Sədin əlini qabar-qabar gördü. Buyurdu: «Əlinə nə olub, onu nə bu hala salıb?». Səd cavabında dedi: «Ya Rəsulullah! Mən əkinçiliklə məşğulam və ailəmin dolanışığını bu yolla təmin edirəm». Rəsulullah (s) onun əlini öpdü və buyurdu: «Bu, bir əldir ki, ataş (Cəhənnəm odu) ona təmas tapmaz»».

Ruzi qazanmağın əhəmiyyəti, məqamı o qədər böyükdür ki, əziz İslam Peyğəmbəri (ə) gəlib zəhmətkeşin əlindən öpür. Bu böyüklükdə ümmətin Peyğəmbəri (s), Allah Təalanın yerləri-göyləri yaratmasının səbəbkarı olan Rəsul (s), sadə bir əkinçinin əlini öpür – əməyə və halal ruzi qazanmağa verilən İlahi qiymətin və dəyərin təzahürü kimi. Kimsə deyir ki, İslam dini süstlük, tənbəllik verir, çalışmaqlıq vermir, tərki-dünyalığa üstünlük verir – onun ən gözəl cavabı budur: bu ümmətin Peyğəmbəri (s) ruzi üçün çalışan əlləri öpür!

Amma ən əsas şərti yaddan çıxartmaq olmaz ki, halal ruziyə nə qədər təşviqat varsa da, bunun zəruri və kafi şərti – Allaha bəndəlik müstəvisində olmasıdır. Əgər ruzi dalınca getmək insanı Allaha bəndəliyə aparırsa, əgər bu məsələlər insanı Allahdan uzaq salmayacaqsa, əksinə, Allah Təalanın dediyi yolla getməyi daha da gücləndirəcəksə - bu deyilən qiymətlərin, verilən dəyərlərin hamısı ona aiddir.

Amma əgər ruzi əldə etmək adı ilə insan Allahdan uzaqlaşacaqsa, Allaha bəndəlik müstəvisindən çıxacaqsa – demək onun məşğul olduğu işə ruzi əldə etmək deyilməz. Nəql olunan dəyərlər onun gördüyü işə şamil olunmaz.

Uca Allah cəmi insanlara bu mətləbləri düzgün anlamaq tofiqatını nəsib etsin!

Allahım! Bizləri halal ruzi ardınca gedənlərdən qərar ver!

Allahım! Bizlərə Sənin istədiyin işlərlə məşğul olanlardan olmağı nəsib et!

Allahım! Cəmi bəndələrini mənasız və nadürüst işlərdən uzaq et!

Allahım! İşğal olunmuş torpaqların tezliklə qəsbdən qurtulmasını nəsib et!

Allahım! Öz Hüccətin – İmam Mehdi Sahib-əz-Zamanın (ə.f.) tezliklə zühur etməsini nəsib et! Amin!

Hacı İlqar İbrahimoğlu
ilahiyyatçı-filosof

# ÖZÜNÜKƏŞF

## İnsanın gerçək və həqiqi "öz"ü nədir və ona necə nail olmaq olar?

***İnsan iki maddi və qeyri-maddi (maddəüstü) yönə malikdir. Başqa sözlə, insanın bədəni, cismi və "mən" deyə ifadə olunan ilahi ruhu, mücərrəd və mələkuti gövhəri var.***

***İnsanın cismi və maddi yönü keçicidir. Daim dəyişən haldadır. Hər bir üzvü digər üzvlərindən gizli və xəbərsizdir.***

***Digər tərəfdə isə "mən", yaxud ruh insanın gerçək mahiyyəti və zati həyata, şüura, əbədiyyətə, qüdrətə və iradəyə malikdir.***

***İnsan "mən" və ilahi ruhunu tanımaqla Allahı vasitəsiz və intuitiv olaraq dərk edə bilər. Necə ki, Peyğəmbər (s) buyurmuşdur: "Nəfsini tanıyan, Allahını tanıyar" ("Bihar əl-ənvar", c. 2, səh. 32). Buna görə də nəfsi tanımaq Allahı tanımaqla sonuclanır.***



Dünya həyatı boyunca insanla birgə olan sabit və qalıcı həqiqət, insanın şəxsi kimliyinin və şəxsiyyətinin səbatına səbəb olan amil ruh və onun maddəüstü yönüdür ki, əslində insanın insanlığı ondan asılıdır.

Allah insanın mücərrəd yönü və mələkuti ruhuna görə mələklərə onun qarşısında səcdə etməyi əmr etdi:

"Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!"İnsanın yüksək ilahi xilafət məqamına nail olması, ilahi adları əxz etməsi ona bəxş edilən xüsusi istedada görədir.

İnsan sözügedən ilahi ruha görə ilahi vəzifələr yükünü, məsuliyyətini üzərinə aldı. Bir halda ki, göy, yer və dağlar onu üzərlərinə almaqdan imtina etdilər ("Əhzab", 72).

O şüurlu və ölməz həqiqət insan öləndən sonra bərzəxə, sonra da axirət aləminə köçürülür. İnsanın gördüyü işlərin cavabdehliyini daşıyır. Bu, insanın gerçək "öz"ü və onun ruhudur. Buna görə də insanın gerçək "öz"ü onun ilahi ruhudur ki, onu dərk etməklə şərəflənir, yüksəlir. Özünü çirkinliklərə bulaşmaqdan üstün sanır. Öz müqəddəsliyini anlayır. Müqəddəslər, ictimai və əxlaqi dəyərlər onun üçün məna və dəyər tapır ("Məcmueyi-asar", c. 2, səh. 283-282). Amma bəziləri can bəsləməyi, cismani həzləri son və əsl məqsəd hesab edir, onu insani kimlikləri ilə səhv salırlar. Nəticədə isə bütün səylərini cisimlərinin rahatlığı, qidalanması istiqamətinə yönəldir, gerçək "mən"lərindən xəbərsiz qalırlar.

**İnsan və özünü unutmaq**

Quranda bəzən özünü unutmaqdan söhbət açılır:

"Allahı unutduqları üçün Allahın da onları özlərinə unutdurduğu (xeyirlərini başa düşməyən) kimsələrə bənzəməyin!" ("Həşr", 19)

Bəzən ziyana uğramaqdan söhbət açılır:

"Əsl ziyan çəkənlər (axirəti əldən verənlər) qiyamət günü özlərini və ailələrini (özlərinə bağlı olanları) ziyana uğradanlardır. Bax, açıq-aşkar ziyan budur!" ("Zumər", 15)

Bəzən özünə zülm etməkdən söhbət açılır:

"Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq" ("Əraf", 23).

Bu kimi ayələrdən aydın olur ki, bəzən insanın özünü özündən uzaqlaşdıran, özü ilə özü arasına fasilə salan hal yaranır. Yəni, xəyali özünü, bədənini gerçək özü və insani kimliyindən üstün tutur. Özündən qeyrisini özü sanır və nəticədə gerçək "öz"ünə ziyan vurur, onu unudur.

İmam Əli (ə) gerçək "öz"ünü itirən kimsə haqqında buyurur: "İtirdiyinin ardınca gəzən, amma "öz"ünü itirdiyi halda onu aramayan insana təəccüb edirəm" (Əbd əl-Vahid ibn Məhəmməd Təmimi, "Ğürər əl-hikəm və durər əl-kəlim", səh. 233).

*Hz. Məhəmməd Peyğəmbər (s) buyurmuşdur:*

***"Nəfsini tanıyan, Allahını tanıyar"***



Mövlana cismi ruhla səhv salmağı gözəl bir misalla ifadə etmişdir. Təsəvvür edin ki, insan çoxlu sərvət, güc sərf edərək, yorulmadan çalışaraq torpaq sahəsində ev tikir. Lakin o evdə məskunlaşmaq istədikdə ona deyirlər ki, sən evi başqalarının torpağında tikmisən. Bir ömür bütün səyini cismini bəsləməyə, rifahına sərf edən, ruhundan, "mən"indən xəbərsiz qalan insan əslində başqalarının torpağında ev tikmişdir (Cəlaləddin Məhəmməd Mövləvi, "Məsnəvi", səh. 191).

Gerçək "öz"ünü və ya nəfsi tanımağa nail olmaq iki inkari və iqrari amildən asılıdır. Yəni, bir tərəfdən özünü tanımaq, anlamaq yolunda olan maneələr aradan qalxmalıdır, digər tərəfdən isə həqiqi "öz"ü iqrari çözüm yolları ilə gücləndirilməli, yüksəldilməlidir.

## Özünü tanımağın maneələri

Gerçək "öz"ü tanımağın maneələri üç qrupa bölünür:

**a) Davranış maneələri;**

Buraya aşağıdakılar daxildir: 1. Cismani və heyvani həzlərlə çox məşğul olmaq; 2. Ağıl və şəriət çərçivəsinə sığmayan nəfsani istəklərlə tabe olmaq; 3. Günaha bulaşmaq.

**b) Əxlaqi maneələr;**

Buraya aşağıdakı əxlaqi qəbahətlər daxildir: 1. Təkəbbür; 2. Xəsislik; 3. Tamah; 4. Eqoistlik və s. Bu və ya digər əxlaqi qəbahətlər alaq otlarını xatırladır. Onları insan nəfsinin əkin sahəsindən çıxarıb atmaq, böyüyüb yayılmasının qarşısını almaq lazımdır.

**c) İdrak maneələri.**

1. İllüziya və xəyallar; 2. İnsanın zehninə, ürəyinə nüfuz etmiş, onu həqiqət mənşəyinə yox, yanıldaraq ilğıma sövq edən yanlış və xoşagəlməz düşüncələr. Nəfsi tanımaq yolunu gedən şəxs təxəyyülünün cilovunu yığmalı, onu nəzarətə almalı və öz həqiqətini tanımaq üçün zəmin yaratmalıdır.

İmam Xomeyni bu haqda yazır: "Şeytan və şeytani qüvvələrə qələbənin mənşəyi təxəyyülün uçuşunu önləməkdir. Çünki təxəyyül çox uçağan quşdur. Hər an bir budağa atılır və bu bir çox bədbəxtliklərə yol açır. Təxəyyül Şeytanın vasitələrindən biridir. İnsanı onun vasitəsilə çarəsiz hala salır, bədbəxtliyə sürükləyir. Öz islahına çalışan, batinini saflaşdırmaq, onu şeytani qüvvələrdən təmizləmək istəyən insan təxəyyülün cilovunu əlinə almalıdır. Ona istədiyi yerə atılmasına imkan verməməlidir. Günah və fitnə kimi yanlış və batil xəyallara dalmasına mane olmalıdır. Daim təxəyyülünü şərəfli işlərə yönəltməlidir" (Ruhullah Musəvi Xomeyni, "Qırx hədis", səh. 16).

**Özünü tanımağın yolu**

Nəfsi tanımağın iqrari yolları mövzusunda bir neçə önəmli yolu diqqətinizə çatdırırıq:

**1. Şəriət qaydalarına sadiq qalmaq;**

Bu sahənin biliciləri insanın bütün hərəkətlərinin, davranışlarının şəriət hökmləri daxilində olması qənaətindədirlər. Vacibləri yerinə yetirmək, haramlardan çəkinmək nəfsi tanımaqda ilkin addımdır.

**2. Zikr və fikir;**

Qəlb və dilin Allaha diqqəti təfəkkür və düşüncə ilə birgə olsa, iki qanad rolunu oynayacaq və insanı məqsədə yönəldəcək (Ətraflı məlumat üçün bax: "Liqaullah" traktatı, Ayətullah Mirza Cavad Məliki Təbrizi).

**3. Gecə ibadətləri;**

Gecə yarısı aşiqanə pıçıltı, gecə namazı qılmaq gerçək "öz"ü tanımağın ən mühüm yollarındandır. Əgər bu münacat gecə ah-nalə ilə birgə olarsa, Əhli-beytdən (ə) nəql olunan dualarla müşaiyət olunarsa, insanın özünükəşfində önəmli rol oynayacaq.

**4. Quranla ünsiyyət;**

Quranı oxumaq, üzərində düşünmək onun nurunun insan ürəyinə nüfuz etməsinə şərait yaradır. Bu nurun işığında insan gerçək "öz"ünü daha yaxşı tanıyır.

**5. Əhli-beytə (ə) təvəssül etmək.**

Əhli-beytin (ə) sevgi və vilayət ipindən yapışmadan, o nurlu pakların xüsusi diqqəti olmadan nəfsi tanıma yolunu keçmək mümkünsüzdür. Buna görə də Allah yolunun yolçusunun Əhli-beytlə (ə) dərin əlaqəyə girməsi və bu yolla əsas məqsədə, yəni Allaha yaxınlaşmağa nail olması daha məqsədəuyğundur.

Çevirən: Emil Kələyev

# İRFAN və İSLAM

## "İslam dini" və "irfan" arasındakı əlaqə nədir?

***Öncə bu suala cavab vermək lazımdır ki, "irfan və islam"ı sözün əsl mənasında "islam irfanı" adlandırmaq olar, ya yox? Yəni, irfan (da fiqh, hədis, təfsir və s. kimi) islamın məzmunundan, müsəlmanların orijinal dini qaynaqlarından qaynaq almış, formalaşmışdır, yoxsa onu müsəlmanların irfanı hesab etmək lazımdır? Yəni, bu, islama aidiyyəti olmayan, lakin bu sahə ilə məşğul olanların müsəlman olduğu (müsəlman fiziklər, doktorlar kimi) bir növ həyat tərzi, idrak metodu, bilik sahəsidirmi? ("İrfani dini və dini-irfani" ("Dini irfan və irfani din"), 37-38) Bu məsələ ilə bağlı üç baxış mövcuddur:***



**Birinci:** Əksər ariflərə görə, irfan sırf islam, islam da sırf irfandır. Onlar daim öz mətləbləri ilə bağlı Quran ayələrindən, Peyğəmbərin (s) sünnəsindən, məsum imamların (ə) kəlamlarından, davranışlarından dəlillər, nümunələr göstərirlər. Onlar deyirlər: "İslamda axirət dünyasına etiqad çox ciddidir. Bu etiqad dünya həzlərini, məmnunluqlarını əsassız, faydasız sanmaqla şərtlənir:

"(Ey insanlar!) Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki (məhsul) əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. (Dünya malına aldananları) axirətdə şiddətli əzab, (dünya malına uymayanları isə) Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan (yalandan) başqa bir şey deyildir" ("Hədid", 20).

Müsəlmanlar üçün gözəl örnək olan ("Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!" ("Əhzab", 21) Peyğəmbər (s) özü həyatda sadəlik və zöhd nümunəsi idi. Çoxsaylı rəvayətlərə görə o həzrət (s) vacib ibadətlərdən savayı gecələri də münacatla keçirər, bəzənsə xəlvətə çəkilərdi.

Həmçinin ariflər insan və Allah arasında bəzi münasibətlərdən söz açırlar ki, bu ayədən iqtibas olunmuşdur: "Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan üfürən (can verən) kimi ona (hörmət əlaməti olaraq) səcdə edin!" ("Sad", 35) Yaxud vəhdəti-vücud kimi məsələləri aşağıdakı ayələrdən əxz etmişlər:

"Allah göylərin və yerin nurudur" ("Nur", 35).

"(Ya Peyğəmbər!) Məgər görmürsənmi ki, Allah göylərdə və yerdə nə varsa, (hamısını) bilir. Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Odur. Onlar bundan az da, çox da olsalar və harada olsalar, (Allah) yenə də onların yanındadır. Sonra qiyamət günü (Allah) onlara etdikləri əməlləri (bir-bir) xəbər verəcəkdir. Allah hər şeyi biləndir!"

("Mucadilə", 7)

Deməк, islam irfan, irfan da islamdır. İslam irfanı əslində digər cərəyanlardan yox, islamdan mənşə almışdır ("İrfani dini və dini-irfani" ("Dini irfan və irfani din"), 38; "İrfani-islami çist?" ("İslam irfanı nədir"), səh. 25-30; 107-114).

**İkinci:** Bu yanaşmaya görə, irfan müsəlmanlar arasında yarandığı ilk gündən və öz təkamül mərhələlərində daim islamdan xaric yad mədəniyyətlərin təsiri altına düşmüş və əslində islama xaricdən keçmişdir. Belə ki, müsəlmanlar xristian rahibləri, hind arifləri və yunan filosofları ilə ünsiyyət nəticəsində belə bir üsulu seçmişlər. Demək, "islam irfani" adlanan sahə əslində sözügedən mədəniyyətlərdə, sivilizasiyalarda mövcud olanların qarışığıdır. Əlbəttə, bu ünsürlər - xüsusi iste-

dad və zövqə malik - müsəlmanlar tərəfindən yeni forma almış, təkmilləşmiş və Mühyiddin Ərəbi kimi alimlər vasitəsilə ən yüksək səviyyəyə qalxmışdır ("Nəqdi-sufi", səh. 32-51).

Bu yanaşmanı qəbul edənlərə görə, insan təfəkkür və düşüncə tarixində üç əsas bilik forması, etiqadi cərəyan formalaşmışdır: vəhy cərəyanı (din və Quran), ağıl cərəyanı (fəlsəfə və sübut), kəşf cərəyanı (riyazət və irfan). Bu üç cərəyan bir-birindən tam ayrı olmuş və aralarında hər hansı bir əlaqə yoxdur. Buna görə də onların qarışmasının qarşısını almaq lazımdır ("Məktəbi-təfkik", səh. 54-74). Bu nəzəriyyənin bəzi tərəfdarları İbn Ərəbinin aşağıdakı sözlərini əsas götürmüşlər: "İrfan, islamın təsdiq etdiyi insani bir dindir" ("Din və irfan", səh. 58-60).

İbn Ərəbi "Füsus əl-hikəm" əsərində yazır:

"Din, iki növdür: ilahi din və insani din. "İlahi din", Allahın, peyğəmbərlərin və onların canişinlərinin insanları dəvət etdiyi dindir. "İnsani din" isə bəşərin yaratdığı, Allahın da təsdiq etdiyi dindir. İlahi dini Allah seçmiş və onu məxluqatın dinindən üstün etmişdir. ... İnsanın yaratdığı tərki-dünyalıq və riyazət sistemi heç bir peyğəmbər tərəfindən açıqlanmamış, məlum besət ayinlərində göstərilməmiş, hikmətə əsaslanan göstərişlərdən və qaydalardan ibarətdir. Lakin onun qaydaları, metodları şəriət sisteminə və ilahi hökmə uyğun olduğu üçün Allah onu ilahi din kimi təsdiqləmişdir. ... İnsanlar da bu riyazət sisteminə tabe olmaqla xoşbəxt olacaq, ona qarşı çıxmaqla isə Allahın narazılığına səbəb olacaqlar" ("Füsus əl-hikəm").

**Üçüncü:** İrfan, - istər düşüncə və fikir baxımından (nəzəri irfan), istərsə də xüsusi həyat tərzi olaraq və əməli baxmdan (əməli irfan) - ilk mayasını islamdan almışdır. Lakin bu yanaşmada məqsədi anlamaq üçün bir neçə məqama diqqət yetirmək lazımdır:

3. 1. Bu irfan nə fiqh və hədis elmləri kimi heç bir yad mədəniyyət və düşüncənin təsiri olmadan tam olaraq islamdan, onun qaynaqlarından təsirlənərək yaranmış, nə də riyaziyyat və tibb kimi tam olaraq alınma hesab olunmur. Əksinə, bunların ikisi arasında orta bir mövqedədir. Yəni, həm əsaslarını islamdan almış, həm də islam dünyası xaricindəki cərəyanlardan - xüsusilə işraq fəlsəfəsindən təsirlənmişdir.

Əlbəttə, ariflərin islamın ilkin əsasları ilə bağlı qayda və zabitələri nə qədər düzgün bəyan edə bilməsi, gerçək islam əsaslarından yayınmamaqda nə qədər diqqətli olması araşdırılmalıdır.

İslam irfanı onların diqqətini çəkmiş, öz rəngini onlara vermiş və öz yolunda onlardan istifadə etmişdir, yoxsa əksinə o cərəyanların dalğası islam irfanını da öz istiqamətinə salmışdır? Bu haqda daha çox tədqiqata ehtiyac var. Amma hər halda "islam irfanı" əsl mayasını islamdan almışdır ("Aşenayi ba ülumi islami" ("İslam bilikləri ilə tanışlıq"), c. 2, səh. 84; "Tarixi-fəlsəfə dər cəhani-islam" ("İslam dünyasında fəlsəfə tarixi"), səh. 244; "İrfani dini və dini-irfani" ("Dini irfan və irfani din"), 42-44).

3. 2. Bir çox Quran ayələri, düzgün və mötəbər rəvayətlər bir sıra məqamları, mətləbləri ehtiva edir ki, nəzəri və əməli irfan olmadan onları əsla anlamaq olmaz:

"Biz ona şah damarından da yaxınıq!" ("Qaf", 16)

"Hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır" ("Bəqərə", 115).

"Allah bir kəsə nur bəxş etməsə, onun nuru olmaz" ("Nur", 40).

"Kim Rəbbi ilə qarşılaşacağına ümid bəsləyirsə (yaxud qiyamətdən qorxursa), yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!" ("Kəhf", 11)

"Və sənə yəqin gələnədək Rəbbinə ibadət et!" ("Hicr", 99)

"Beləcə, İbrahimə göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun!" ("Ənam", 75)

"Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik" ("Fussilət", 53). Və bu məzmunda olan digər ayələr ("İrfani dini və dini-irfani" ("Dini irfan və irfani din"), 63-46).

3. 3. İrfanın islamdan ilham almasını qəbul etmək heç də o demək deyil ki, irfan bütünlüklə başlanğıcdan sonadək öncə Qurana müraciət etmiş, öncə heç bir mühakimə yürütmədən yalnız Quranın fikrini öyrənməyə çalışmış, onu əsas götürmüşdür. Şübhəsiz ki, əgər belə olsaydı, - sufilər arasında mövcud olan - sapmaların, yayınmaların meydana gəlməsinə şərait yaranmazdı.

3. 4. İslam irfanı böyük dəyişikliklərə uğramış və inkişaf yolu keçmişdir. Çox geniş bir kəsimi əhatə edir. Bir tərəfdən islam şəriətini heçə sayan insanlar aid edilir, digər tərəfdən isə iynə ucu qədər belə şəriət yolundan yayınmayan Seyid Heydər Amuli, İbn Fəhd Hilli və Əllamə Təbatəbai kimi dahilərə aid edilir. Öz əsasını islamdan alan həqiqi və gerçək irfan birinci ilə yox, ikinci kəsimlə əlaqəlidir (Yenə orada, səh. 44-46).

3. 5. Kəşf, şühud və riyazət dinin tərkib hissəsidir. Nə onun özü, nə də ondan xaricdir. Biz qəbul edirik ki, irfan bütünlüklə islama bərabər deyil. Amma digər tərəfdən də bu məsələni qəbul etmirik ki, kəşf və şühud dinin daxilində və onun tərkib hissəsi deyil, bütünlüklə dinin nə boyunda və onun müqabilindədir. Bizim fikrimizcə irfan, kəşf və şühud dinin başlıca ünsürlərindəndir.

Çevirən: **Maqsud Sayıl**

# VİKTOR HÜQONUN

## Məhəmməd Peyğəmbərə (s) yazdığı şeir



**Xristian dünyasının əsrlərdir müzakirə obyektinə çevirdiyi Viktor Hüqonun Həzrəti Məhəmməd haqqında yazdığı şeir türk dilinə tərcümə edilib. Şeiri Çeçen Universitetinin Xarici Dillər Mərkəzinin Fransız dili kafedrasının müəllimi Yaqub Yaşa uzun sürən araşdırmadan sonra tərcümə edib. Orijinal adı "Mahomet" olan şeirdə Həzrəti Peyğəmbərin sadə həyatı və bitkin şəxsiyyətindən söz açılır. Hüqo şeirində İslam peyğəmbərinin ömrünün son anlarını təsvir edib.**

Qeyd edək ki, V. Hüqonun "La legende des siècles" ("Yüz illərin əfsanəsi") adlı əsəri 28 sentyabr, 1859-cu ildə Brüsseldə ilk dəfə çapdan çıxıb. Ancaq bu nəşrdə olan İslam və İslam peyğəmbərinə dair "Mahomet" şeiri digər nəşrlərdə verilməyib.

Fransa Milli Elmlər Akademiyasının Tədqiqat Mərkəzi "Yüz illərin əfsanəsi" əsərindəki "Mahomet" şeirini Hüqonun ölümündən yüz il sonra, yəni 1985-ci ildə nəşr edib. Bundan sonra xristian dünyasında Hüqonun müsəlman olub-olmadığı ilə bağlı mübahisələr səngimək bilmədi. Hətta onun iki övladının və bir oğlan nəvəsinin xaç suyuna salınmadığı və xristian adəti üzrə dəfn edilmədiyi faktı mövcuddur. Onun bir çox əsərində evində gizli ibadət etdiyi haqqında yazılara da rast gəlmək mümkündür.

Kulis.az "Aydın yol"a istinadən Hüqonun "Mahomet" şeirinin Azərbaycan dilinə tərcüməsini təqdim edir.

Mahomet

**(Məhəmməd (Ona Allahın xeyir-duası və salamı olsun!))**

Vəzifəsi yaxınlaşmışdı, dünyaya göz açdı
Mətanətli idi, kiminsə xətrinə dəyib incitməzdi
Yolda gördüyü hər kəslə salamlaşardı
Hər gün sanki bir az daha yaşlanırdı
İyirmiyə yaxın ağ tük vardı saqqalında
Bəzən durar, su içən dəvələri seyr edərdi,
Bu seyr ona dəvə otardığı günləri xatırladardı
Sanki Cənnəti görmüş, ilahi eşqi tapmışdı
Sanki kainatın yaradılışına şahid olmuşdu

Alnı dik, yanaqları qüsursuz, bənzərsiz idi
Qaşları incə, baxışları mənalı və sərt idi
Boynu gümüş bir səhəngin boğazı idi sanki
Tufanın sirlərini bilən Nuhun havası var idi onda.
Onunla danışmağa gələnlərlə ədalətli idi,
Bəziləri gülər, bəziləri etiraf edər, bəziləri də danardı
Səssizcə onları dinlər, ən son özü danışardı
Dodaqlarından dua və zikr əskik olmazdı

Çox az yeyər, qarnına daş bağlayardı
Yerə oturar, paltarlarını yamayardı
Artıq gənc deyildi, əvvəlki gücü də yox idi
Yenə də hər kəsdən daha çox oruc tutardı.
Altmış üç yaşında, sanki bir alov bürüdü bədənini
Müqəddəs kitab Quranı bir daha oxudu
Sonra bayrağı Səid oğluna təslim etdi,
Onlara: "Artıq aranızdan ayrılmaq vaxtı gəldi," – dedi
"Allah birdir, yalnız Onun yolunda mübarizə aparın," - dedi.

Hüznlü idi yurdundan didərgin düşmüş yaşlı qartal kimi
Adəti üzrə məscidə gəldi
Əliyə tabe olanlar da arxasınca gəlirdi
Və müqəddəs bayraq küləklərin ağuşunda dalğalanırdı
Üzü solğun idi, geri döndü və kütləyə belə səsləndi:
Ey insanlar, ömür bitir, həyat gəlib keçəcək
Biz qaranlıqda bir zərrəyik, uca olan Odur
Ey insanlar, ondan başqa rəhbərim yoxdur
Onsuz bir dəyərim olmazdı
Ey möminlərin həqiqi sultanı,

Səni dinlər-dinləməz, hər kəs sözünə inandı
Sən doğulanda, bir ulduz doğuldu göy üzündə
Kisranın üç qülləsi birdən yıxıldı
Mələklər ölümümü müzakirə etdi
Vədə yetişdi, dinləyin, əgər kiməsə bir pislik etdimsə,
Önə çıxsın, hər kəsin önündə intiqamını alsın
Kimə vurmuşamsa, o da mənə vursun
Sakitcə əsasını oradan keçənlərə uzatdı,
Yaşlı bir qadın qoyun otarırdı çöldə
Ona: "Allah köməyin olsun," – dedi
Baxışlarında bir hüzn vardı, sanki tükənmişdi.

Fikirli idi, birdən dilləndi: Hər kəs eşitsin!
Allah mənim adımı andı, bundan əmin olun
Torpaqdan insan, nurdan bir peyğəmbərəm
İsanın gətirdiyi dini tamamlamağa gəldim
Ey səhabələrim, mən səbir daşıyam, İsa şirin dilli idi



Unutmayın, hər şəfəq doğan günəşin bir müjdəçisidir
İsa məndən əvvəl idi, ancaq nə Tanrıdır, nə də onun oğlu

O, gülü qoxulayan bakirə Məryəmdən dünyaya gəldi
Unutmayın, mən də ətdən-sümükdən bir faniyəm
Bu dünyada başıma gəlməyən heç bir şey qalmadı
Yol belə, çəkdiyim əziyyətlərə dayanmazdı
Təzyiq və işgəncədən bədənim çox əzab çəkdi
Unutmayın, əgər işlədiyimiz hər günahın əvəzi
Qorxunc həşərat olsaydı, o qaranlıq məzarı bizə dar edərdi,
Cəhənnəmə çevirərdi oranı...

Yenidən bədənlərin cəhənnəm əhlinin bədənləri,
Həşəratlar yenidən gəmirər bütün bədənləri
Beləcə dəfələrlə ölüb yenidən dirilərlər
Cəzalarını çəkdikdən sonra yenidən rahatlıq taparlar
Mən müqəddəs müharibələrin təvazökar meydanıyam

Bəzən böyük, bəzən də kiçik kimiyəm
Sözlərim çöldəki qum və quyular kimidir
Bir sözüm qorxudursa, bir sözüm müjdələyəndir
Ey insanlar! Nələr çəkdiyimi görürsünüz
İnsanları aldadıb zəlalətə salmaq istəyən dəhşətli iblislərə
Əngəl olmağa çalışdım, bağladım pis əllərini
Çox vaxt Yaqub kimi qaranlıqlar içində
Görmədiyim kəslərlə vuruşdum
Ancaq insanlar məni qəsdən öldürmək istədilər

Mənə qarşı hey kin və həsəd bəslədilər
Mən isə əsla haqq mübarizəmdən geri çəkilmədim
Onlarla vuruşdum, ancaq heç kimdən incimədim
Mübarizə boyu – Qoyun, nə edirlərsə-etsinlər - dedim
Qanlar içində tək yaralı mən olmaq istəyirdim
Qoy hamı məni vursun,
Onsuz da vurmaqdan yorulmazlar ki...

Sağ əllərinə Ayı, sol əllərinə Günəşi də versəydim,
Düşmənlərim əsla vaz keçməzlərdi
Yenə də bu çətin səfərimdə mənə hücum etdilər
Ancaq nə olursa-olsun, geriyə addım atmadım
Bu müqəddəs dava uğrunda qırx il mübarizə apardım
Belə keçən bir ömrü sonunda tamamladım
İndi Allaha gedirəm, dünyanı geridə qoydum.

Hazırladı: Narıngül

# ÖLÜLƏRİMİZİ YUXUDA GÖRMƏYİMİZ NƏ DEMƏKDİR?

**Hədislərimizdən belə nəticəyə gəlmək olur ki, insanlar bərzəx aləmində 3 dəstəyə bölünürlər: bir dəstə kafirdir, bir dəstə mömindir, üçüncü dəstə isə insanların əksər hissəsinə şamil olur və bu insanlar yuxuda olarlar və öldüklərindən xəbərləri olmaz. Qiyamət günü nə zaman öldüklərini soruşan zaman deyərlər ki, bir gün və ya ondan da az müddətdə.**

Beləliklə bəzi dəstələr bərzəxin behiştindədir, bəzi dəstələr cəhənnəmində və bəziləri isə nə cəhənnəmdədir və nə də behiştdədir. Bihuş halda yuxudadırlar.

Möminlərin dəstəsi də üç dəstəyə bölünür. Beləliklə bərzəx əhlini beş dəstəyə bölmək olar ki, onların üç dəstəsi möminlərdir. Bir dəstəsi kafirlərdir və bir dəstəsi də fikri zəif olan insanlardır ki, yuxu halında olarlar. Bu zəif fikirli insanlar möminlərdən hesab olunmur.

Bu insanlar o kafirlərdir ki, fikri zəifliklərinə və nadanlıqlarına görə haqqı dərk edə bilməyiblər. Onların təklifini Allah Qiyamət günü açığa çıxaracaqdır. Onlara göndərilən hədiyyələr və saleh əməllər onlara nicat verməsə də, əzablarını yüngülləşdirə bilər.

Möminlərin qeyd etdiyimiz kimi üç dəstəsi vardır ki, onların bir dəstəsi xalis möminlərdirlər. Bu insanların günahları yoxdur və onlar qəbir əzabı görməzlər. Nəkirlə Münkərin hesabını verəndən sonra, behiştə daxil olarlar. Qiyamətə qədər bərzəx behiştində yaşayarlar. Onlara hər nə qədər xeyir əməllər və hədiyyələr göndərilərsə, dərəcələrinin artmasına səbəb olar.

İkinci dəstə möminlər o kəslərdir ki, az və ya çox günahları vardır. Mömindirlər, ancaq günah da ediblər. Bu insanlar həmin günahların cəzasını müvəqqəti olaraq cəhənnəmin üst təbəqəsində çəkərlər. Sonra yenidən behiştə qayıdarlar.

Üçüncü dəstə möminlər isə o kəslərdir ki, günahları o qədər çoxdur ki, imanlarını təsiri altına almışdır. Günahları o qədər çoxdur ki, xeyir əməlləri əzablarını yüngülləşdirməz və can verməyin çətinliklərini azaltmaz. Bu möminlər Qiyamətə qədər cəhənnəmdə qalarlar. Qiyamət günü hesabları ağırdır. Lakin uzun zaman əzab gördükdən sonra behiştə qayıdarlar, çünki imanları vardır. Onlara göndərilən xeyir əməllər və hədiyyələr əzablarını yüngülləşdirər və hətta cəhənnəmin üst təbəqəsinə belə qalxa bilərlər. (Tebyan)

Hər bir halda bizim ölülərimizə göndərdiyimiz hədiyyələr və xeyir əməllər onları sevindirər və hallarına təsir qoyar. Onların qəbirlərinin üzərində etdiyimiz dualar qəbul olar, xüsusilə də ata və ananın duaları.

## Ölülərimizdən gördüyümüz yuxular.

Bəzən yuxularımızda ölülərimizin sevindiyini və ya narahat olduğunu görürük. Əgər belə yuxu görsək və ölümüzü narahat halda görsək və bu yuxu da sadiq yuxulardandırsa, deməli bizə nəyisə demək istəyir. Həmin ölünün yaxınları onun nədən narahat olduğunu tapmağa çalışmalıdırlar. Əgər bacarmasalar, onun üçün istiğfar etməlidirlər.

Bəzən ölülərin simasını solmuş və qara görürük və bu səbəbsiz deyildir. Bu, o deməkdir ki, onların bərzəx aləmindəki yeri heç də ürək açan deyildir. Ona görə də ölünün yaxınları çalışmalıdır ki, xeyir əməllər yerinə yetirib, ona hədiyyə etsinlər.

Lakin bəzi yuxular sadiq ola bilər. Qalan yuxular isə bəzən şeytandandır və bəzən də insanın həmin şəxsi düşüncələrinin məhsuludur.

# İFFƏT

**İffət sözünün lüğət mənası özünü qorumaq və nəfsdə elə bir hal yaratmaqdır ki, onun vasitəsilə şəhvət qüvvəsinin ifrat tələblərindən, halal və yaxşı olmayandan qorunmaqdır. Əxlaq elmi terminologiyasında isə özünü maddi və nəfsani hazlara münasibətdə ifrat meyllərdən qorumağa deyilir və bu, şəhvətin tam əksidir.**

İffət, insanı müxtəlif növ ehtiraslardan, meyllərdən (cinsi, maddi və s.) çəkindirən, ziyanlı hərəkətlərdən yayındıran, kontrol altına alan bir amildir. Bu baxımdan insan üçün bir zərurət və bir zəruri xislət hesab olunur və insanın dəyərcə yüksəlişini təmin edir.

İffət, əxlaq elminin təməlidir. Çünki əxlaq alimləri yaxşı əxlaqın təməlinin dörd şey olduğunu hesab edirlər. Bunlar hikmət, şücaət, ədalət və iffətdir.

İslam təfəkküründə iffət əlin, dilin, qarının və s. üzvlərin hər növ eyb və pislikdən uzaq olmasına şamil olur. Buna görə də iffət daha geniş məna kəsb edir və bütün nəfsani məsələlərə aid olur. Misal üçün, gözün saflığı, dilin saflığı və s. Başqa sözlə, İslam təfəkküründə iffət ismətlə məhdudlaşmır. Lakin bizim ictimai mühitimizdə iffət daha çox qadın və kişinin isməti ilə əlaqələndirilir.

İslam rəvayətlərində iffət və ismət ən yüksək şərafət, zəkanın nəticəsi, ən üstün ibadət, nemətin mükəmməlliyi, davranış və danışıqda özünə göz qoymaq ifadələri ilə anılmışdır. İmam Əli (ə) buyurmuşdur:

"Allah yolunda şəhid olan mücahidin mükafatı günah etmək imkanı olub, özünü qoruyan və iffət nümayiş etdirən kəsin mükafatından daha çox deyil. Pak insan Alahın mələklərindən biri olmağa yaxındır. Niyə də belə olmasın. Bir halda ki, iffətli insan böyük cihadda qələbə çalmışdır. Amma Allah yolunda cihad edən isə kiçik cihadda qələbə çalmış olur".

Bizi iffətə, ismətə səsləyən yalnız din deyil. Bu çağırış insanın daxilindən mənşə alır və din də onu təsdiq edir. Qeyrət, alicənablıq, nəfsani ləyaqət hamısı insanı iffətli olmağa səsləyir. Rəvayətlərə görə, iffət və ismət ləyaqətin əsasıdır. Bundan başqa, insanın şəxsiyyəti iffətinin möhkəmliyi sayəsində bəlli olur. Buna görə dini mətnlərdən də aydın olur ki, iffətin inkişafı ilə zəka arasında ağılamüvafiq və məntiqi əlaqə var. Bu ikisi arasında qarşılıqlı əlaqə mövcuddur. Məhz buna görə də İmam Əli (ə) buyurur:

"Kimin ağlı varsa, iffətli olar. Çünki iki sifətin mənşəyi mötədilliyə, ifrat və təfritdən uzaq durmağa doğru hərəkətdir".

## İffətin əhatə dairəsi

İffətin müxtəlif yönləri və onun insanın fərdi və ictimai həyatındakı yeri çox geniş bir sahəni əhatə edir. Quran və sünnəyə istinadən bir neçə nümunəni diqqətinizə çatdırırıq:

**1. Düşüncədə iffət;**

Ağıl nəfsani meyllərin tarazlığını qorumaqda və bəşəri instinktlərin ram edilməsində təsirli olan amillərdən biridir. İnsan təfəkkürü nə qədər mötədil olsa, onun (hər növ çirkinlikdən uzaq) təkamül axtarışında olan fitrətinə daha çox uyğun olacaq. Təkamül yolunu daha sürətlə aşacaq. Ağıl iffət və qənaətin miqdarı ilə ölçülür.

**2. Baxışda iffət;**

Göz ürəyin darvazasıdır. Buradan insanın vücuduna daxil olan bəzən onu səadətə, bəzənsə bədbəxtliyə sürükləyir. Buna görə də baxışda iffətli olmaq tövsiyə edilmişdir ki, insan aludə baxışlardan həzər etsin. Gözünü qorumayan insanlar iztirablı və nigarandırlar. Belə ki, onun ardınca həvəslərə bulaşmış tamah insanı rüsvay edir.

**3. Davranışda iffət;**

İslama görə, qadınların ictimai fəaliyyəti, cəmiyyətdə qadın və kişi arasındakı əməkdaşlıq, əlaqə bir sıra ədəb qaydaları çərçivəsində olmalıdır ki, bu iffət adlanır. Xəlvət yerdən çəkinmək, fitnəli söhbətlərdən yayınmaq, əl verib görüşmək, (təhrikedici) ətirlərdən istifadə etməmək və s. bu qəbildəndir.

**4. Zinətdə iffət;**

İnsanın gözəlliyə və süslənməyə meyli onun xəmirində yoğurulmuşdur. Amma bu hiss etidal həddini aşmamalıdır. Onda ifrata varmaq dəbdəbəyə, özünü süsləməyə, iffətsizliyə gətirib çıxarar və arzuolunmaz nəticələr doğurar.

**5. Danışıqda iffət;**

Danışıqda iffət hər növ batil, faydasız, günahlı və haqqa zidd danışığı rədd edir. Eləcə də danışıqda şəhvət düşkünlərini günah fikrinə salacaq hər növ naz-qəmzəni rədd edir.

**6. Örtünməkdə iffət.**

Quran örtünmədə iffəti bəzən bədən üzvlərini örtmək, ayıb yerləri örtmək, bədəni qorumaq, bəzənsə qadın şəxsiyyətinə hörmət, onu narahatçılıq törədənlərdən qoruma vasitəsi kimi təqdim edir.

**İffətli olmağın sonucları**

1. Ailənin möhkəmlənməsi və insan nəslinin paklığı;

Əgər cəmiyyətdə iffətə tam olaraq riayət olunarsa, intim münasibətlər ailə mühiti ilə məhdudlaşarsa, ailənin səbatlılığı və möhkəmliyi daha çox olar. Nəsillərin tanınmasına, ailədə ər-arvad arasında bağların möhkəmlənməsinə səbəb olur.

**2. Psixi təskinlik və hiss üzvlərinin təmərküzü;**

İffətli olmaq, bir çox psixi təşviş və həyəcanların qarşısını alır. Belə ki, ona riayət etmək zehn və düşüncəni yanılmadan qoruyur və insanların duyğu üzvlərini gerçək dəyərlərə doğru yönəldir.

**3. Fərd və cəmiyyətin sağlamlığı.**

Kişi və qadınların cəmiyyətdə təhrik və şübhəyə yol açmadan yer almaları cəmiyyəti möhkəmlədir. O cəmiyyətin inkişaf yolunu açır. Fərdlər bir çox cismi aludəçiliklərdən amanda qalırlar.

İffət həmçinin əməllərin paklanmasına, ehtiras-ların zəifləməsi və azalmasına, günah yükünün yüngülləşməsinə, insanın izzət qazanmasına, Allah yanında yüksəlməsinə, abrın qorunmasına səbəb olur. Hər bir fərdin şəxsiyyəti bu yüksək insani sərmayənin qorunmasından asılıdır.

**İffəti yaymağın yolları**

Məsumlardan (ə) bizə gəlib çatan hədislərdə insan vücudunda iffətin yaranmasına kömək edən ən yaxşı amillər bunlardır: imanı gücləndirmək, günaha göz yummaq, ölümü çox yad etmək, nəfsi ilahi əzabla qorxutmaq, Allaha təvəkkül və Ondan yardım diləmək, qənaət etmək və həyatın zərurətləri, ehtiyacları ilə kifayətlənmək, cəmiyyətdə sə insanları ictimai və mədəni baxımdan bilgiləndirmək, uyğun örnəklər vermək, ailə qurmağı asanlaşdırmaq, ictimai fəsadların qarşısını almaq və s.

Bu gün bəşəriyyət texnikaya, vülqarlıq və bayağılıq baxımdan sivilizasiyaya nail olmasına baxmayaraq, olduqca sərgərdan və çaşbaşdır ki, bu da dünya imperializminin öz siyasi, iqtisadi məqsədlərinə çatmasına səbəb olmuşdur. Bir cümlədə demək olar ki, bugünkü dünyada mövcud olan bütün iffətsizliklər iffət prinsiplərini və cinsi məsələlərdə təqvanı təhqir etməyə yönəlmişdir.

Demək, bu dəyərli sərmayənin daim tərbiyəyə ehtiyacı var. Təfəkkür, düşüncə, səbir və elm onu artırır. Dəyərləri qorumaq kamal sifətlərinin sayəsində inkişaf edən iffətin öhdəsinə qoyulmuşdur.

Çevirən: Maqsud Sayıl

# QEYBƏT ETMƏYİ NECƏ TƏRK ETMƏK OLAR?

Qeybət etməyi tərk etmək üçün aşağıdakı yolları diqqətdə saxlamaq lazımdır:

a) Qeybətin kökləri və onunla mübarizə aparmağın yollarını tanımaq: Əvvəlcə qeybətin köklərini tapmaq lazımdır. Sonra isə onunla mübarizə aparmaq gərəkdir. İmam Sadiq (ə) qeybətin kökünü on şeydə bilir ki, biz onlardan bir neçəsinə işarə edirik:

Qəzəbin şəfası: Bəzən kimdənsə narahatsınız. Qəzəbinizi boşaltmaq və rahatlaşdırmaq üçün özünüzü qeybət etməklə məşğul edirsiniz.

Başqaları ilə yoldaşlıq: Yəni bir dəstə adam qeybət qırmaqla məşğul olurlar və biz də hər bir şəkildə onlara bu işdə köməklik edirik.

Töhmət: Bu mövqe ən azı iki mənada ifadə oluna bilər: Biri odur ki, kimsə bizə töhmət vurur və biz də onun qeybətini edirik. Məsələn, deyirik: "Əgər filankəs bu cür eyib və nöqsana malik olmasaydı, bizə töhmət vurmazdı". İkinci: Odur ki, biz kiməsə töhmət vurmaq istəyirik. Ancaq əvvəlcə qeybət etməklə bu yükü rahatlaşdırırıq. Məsələn, deyirik: "Filankəs belə bir pis sözlər deyib. Əslində bu adam elə bədağız və kin-küdurətlidir".

Bədgümanlıq qeybətin köklərindən biridir.

Həsəd də paxıllığı çəkilən adamla əlaqədar qeybət etməyə səbəb olur.

Məsxərəyə qoymaq bəzən bir insanın qeybətini etmək üçün vasitəyə çevrilir və insanı başqasının qeybətini etməyə vadar edir.

Buna görə də əvvəlcə qeybətin özü araşdırılmalıdır. Sonra isə müxtəlif yollarla onun kökünü aradan aparmağa çalışmalıyıq.

b) Quran və hədislərdə qeybət etməyi məzəmmət edən göstərişlər üzərində təfəkkür etmək:

Bu ayə və hədisləri yaddaşda saxlamaq üçün hər gün gözdən keçirtmək lazımdır. Bu mütaliə və davamlı olmaq zaman keçdikdə qeybət etməyin məzəmmət olma inancını bizim şüurumuzda möhkəmlədir. Belə ki, qeybət şəraitinə düşdükdə, bu inanc dərhal zehnimizə gələcək və bizi bundan saxlayacaqdır. Çünki həm qeybətin pis iş olduğunu, həm də onun nəticəsini gözümüz önündə saxlayacağıq.

c) Ölüm barədə təfəkkür etmək: Hədislərdə qeyd edilir ki, ölüm haqqında düşünmək özünü ədəbləndirmək və fərdi inkişaf üçün çox önəmli faktordur. İnsan ölüm haqqında düşünərkən təkcə günahdan əl saxlamır, əksinə, mənfi və bəd əməllərə qarşı nifrət mövqeyində durur. Yəni insan təkcə özünü düzəltməyəcək, bununla paralel cəmiyyətdəki pozğunçuluğu da aradan qaldırmağa səy göstərəcəkdir.

d) Qeybətə şərait yaradan mövqedən uzaq durmaq: Bəzən bizim yaxın dostlarımız xüsusi məclislər təşkil edir, xüsusi sözlər danışır və s. Qeybət etmək üçün zəminənin yaranması elə ona qulaq asmaqla yaranır. Əgər qeybətin qarşısını ala bilmirsinizsə, ya deyilən sözləri başqa sözlərlə əvəz etməyə, söhbəti dəyişməyə acizsinizsə, onda belə yerləri tərk etməlisiniz. Əgər edə bilməsəniz, qeybət sizin üçün adiləşəcək və buna şərik olacaqsınız.

e) Özünüzə nəzarət və hesab-kitab etmək. Söz deməmişdən öncə diqqətinizi toplayın. Əgər deyəcəyiniz söz qeybətdirsə, onda tərk edin. Özünüzə nəzarəti davamlı etməlisiniz. Hər axşam hesabat aparın. Görün sözlərinizdə kiminsə qeybəti olubmu? Əgər olubsa, həm özünüz, həm qeybətini etdiyiniz şəxs üçün Allahdan bağışlanma diləyin və bir daha qeybət etməyin. Yox əgər etməmisinizsə, onda Allaha şükür edin.

Sonda bunu deməliyik ki, bu işləri yüngül hesab etməyin, yerinə yetirin ki, yaxşı nəticə əldə edəsiniz.

Bütün bunlardan əlavə qeybət etməyi tərk etmək üçün güclü iradəyə malik olmalısınız. Qeybət etməkdən, yaxud ona qulaq asmaqdan hər zaman imtina etmək qüvvətini özünüzdə tapmalısınız. Ola bilər ki, qeybət etmək sizin nəzərinizdə kiçik bir şey olsun. Lakin siz adi bir qeybətin hansı nəticələrə gətirib çıxaracağına yəqin etsəniz, inanın ki, heç vaxt bu addımı atmazsınız.

Hazırladı: Fərid Abdullah.

# HEKAYƏ

## İlqar Kamildən hekayə



*Ayağa qalxıb dəhlizə keçdim, gödəkçəmi çiynimə atıb, dabanəllaltı evdən çıxdım. Belə halımda mənə yalnız məscid aramlıq verə bilərdi. Bu nə iş idi tutmuşdum. Niyə özümü saxlaya bilmədim axı! Axı mən niyə bunu elədim? Axxx! Özümü uşaq kimi danlayır, vurur, hətta söyürdüm də!*

*Həyətdə elə gözəl hava var idi ki, adam nəfəs almağa xəcalət çəkirdi. Amma indi xəcalətin yeri deyildi, dədə malı kimi bütün ciyərlərimi bu sərin havayla doldurdum. Bircə Allah eləyəydi, minbir xırdavat Tahirə rast gəlməyəydim, beynimi yeyəcəkdi suallarıyla. Tələsik məscidə tərəf addımladım.*

*Məscid bizə çox uzaq deyildi əslində, cəmi 7-8 ev aşağıda sol tingədə yerləşirdi. Ay zibil! Lənət olsun, gizlənə bilmədim, budur, İbrahim əmi kəsdi qabağımı. Zalımoğlu həmişə belə gec çıxırdı məsciddən. Belə baxanda pis adam deyildi, amma yerli-yersiz atmacalarından zəhləm gedirdi. Üstəlik, səsi elə bilirdin turbadan çıxır: Uuuu. Bi də gördün köhnə kamaz kimi yolunu kəsib başladı qaşlarını oynatmağa: "Ə kopoolu, noldu, hələ şeytan qoymur tərpənəsən?" Yox, əşşi, evlənməyi yox, namazı nəzərdə tuturdu. Onun aləmində hamı səhərdən axşamacan yalnız məsciddə olmalı, bütün günü ancaq namaz qılmalıydı. Özü helə eləyirdi axı! Bir dəfə dilimi tuta bilmədim: Ay İbrahim əmi, hamı sizin kimi səhərdən axşamacan məsciddə olsa bəs o atdığınız dərmanları kim istehsal edəcək? O-bu, mənlə düz gəlmədi. Deyim atmacalarından əl çəkdi? Xeyr. Acığa lap betər olmuşdu. Saqqal əkib-becərməklə deyil ki. Gərək heç olmasa bir yemək duzu qədər məntiqin də ola. Namazdı də qılırsan, öldürəcəksən camaatı?!*

*Salamlaşdıq. - Hardasan, bala, namaza gəlməmişdin, - dedi.*

*- Vaxt edə bilmədim, İbrahim əmi, - dedim. - Allah namazınızı qəbul eləsin.*

*Sancmasa olmazdı:*

*- Sənə demişdim axı, sevməyə tələsmə, sevmək çox vaxt alır!*

*Haqq söz deyəndə nolar, gərək elə adamı iynəliyəsən? Bir dəfə də nə yeyib-nə içdiyim haqda soruş də. Əsəbləşdim, düzü, amma dinmədim. Sağollaşıb ehmalca məscidə girdim. Ya Rəbbim! Bax, bu!!! Mən bu hüzuru istəyirdim. Hündür, lap çox hündür tavan, geniş salon, yumşaq döşəmə, sakitlik, səssizlik... Sütunlardan birinin dibində oturdum, lap elə bil Tanrının dizinin dibində əyləşmişəm. Əvvəl bir ürək dolusu ağladım, ağladım ey! Sonra dərdimi danışdım, utana-utana xətamı etiraf elədim. Dinmədi. İçimə elə bir hüzur doldu ki... Bəlkə də bəndə xəta edəndə Allah da bəziləri kimi nəsihətə başlayıb, belə edəydin, elə edəydin desə, onu saatlarla danlasaydı, məscid də bu qədər hüzurlu olmazdı. Bəlkə də Allahı bu qədər sevimli edən də elə belə hallarda onun bəndəsinə heç bir cavab vermədən, səssizcə, sadəcə dinləməsidir.*

*Məsciddən çıxanda quş kimiydim. Hətta arada elə bildim indi bu dəqiqə uçacam da. Qabaqda gözümə yenə İbrahim kişi göründü, tez yolumu dəyişdim, yoxsa qanadlarımı qıracaqdı. Dizinin dibində ağlayanda Allahıma kişi kimi söz vermişdim: bir də bu xətanı etməyəcəm. Nə O, nə bir başqası istəmişdi bunu məndən. Özüm belə qərar vermişdim. Bəs necə! O dinmir, danışmır, heç nə demir, bəs mənim mərifətim? Axı bilirəm ki, bu işimdən narahatdı...*

# İSLAM BİRMƏNALI OLARAQ QADINA QARŞI ZORAKILIĞI PİSLƏYİR

**Qadınlar Uca Allahın bizə əmanətidir. Buna görə bu əmanəti qorumaq və himayə etmək vəzifəsi də kişinin borcudur. Əziz Peyğəmbərimiz (s) "Qadınlar sizə Allahın bir əmanətidir" buyuraraq bizə tapşırılan məsuliyyəti bir daha xatırlatmışdır. Eyni zamanda qadının Ana olmasına işarə edib "Cənnət anaların ayaqları altındadır" buyuraraq qadına verilən ən böyük qiyməti və mərtəbəni dilə gətirmişdir.**

Qadın insanı dünyaya gətirən və yetişdirən möhtərəm bir varlıqdır. İslamda qadın ərinin həyat yoldaşı, onun hüzur qaynağı və dayağıdır. İslam nəzərində qadın şəfqət, mərhəmət, hörmət duyulmalı olan və nəzakət tələb edən nəcib və təmiz bir varlıqdır. Peyğəmbərimiz (s) qadınların incə, zərif və kübar varlıqlar olduqlarına işarə edərək onların heç vaxt incidilməməsini və qırılmamasını şiddətlə tövsiyə etmişdir: "Sizin ən xeyirliniz qadınlarına qarşı ən yaxşı və nəzakətli davrananınızdır". Qadına qarşı kobud davranmaq, əziyyət etmək, haqqını tapdamaq insana yaraşmaz.

İslam qadına qarşı hər cür zorakılığın əleyhinədir. "Allah kişini və qadını eyni yaradıb. Bəzən qadına qarşı şiddəti dinlə bağlayırlar. Halbuki, dinimiz xanımlara çox gözəl hüquqlar verib. Məsələn, dinimizə görə, əgər qadın istəməsə ev işlərini görməyə bilər. Bunu ona heç kim, hətta hakim də məcbur edə bilməz. Kişidən müəyyən ev işləri üçün belə zəhmət haqqı tələb edə bilər. Təsəvvür edin ki, qadını ev işləri görməyə məcbur etməyən İslam dini necə zorakılığı dəstəkləyə bilər?

Doğrudur İslama görə ailə başçısı kişidir. Ancaq bu kişinin mütləq hakimdir anlayışına gəlməz. Çünki ailədə qərar məşvərət və məsləhət əsasında qəbul edilir. İslam qadınlara təsəvvür ediləndən daha artıq hüquq verir. Uca Rəbbimiz Qurani-Kərimdə buyurur: "...Onlar (qadınlar) sizin örtüləriniz, siz də onların örtülərisiniz... Onların sizin üzərinizdə, sizin də onların üzərində haqlarınız vardır." (Bəqərə surəsi, 187-228-ci ayələr)

Əziz Peyğəmbərimiz (s) buyurub ki, evdə qız uşağınız varsa, onu oğlandan üstün və öndə tutun. Hədiyyə alanda birinci qız, sonra oğlan övladınıza təqdim edin. İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allah-Təala qadınlara qarşı kişilərdən daha mehribandır. Özünə məhrəm olan qadınlardan birini razı salan elə kişi yoxdur ki, Allah-Taala qiyamət günündə onu şad etməsin". Allahın qadınlara verdiyi dəyəri isə Qurani-Kərimdə qadınlara aid bir surəni – Nisa surəsini (Nisa ərəb dilindən tərcümədə qadınlar deməkdir) nazil etməsində aydın görə bilərik.

Təəssüflər olsun ki, müasir dövrdə hələ də bəzi kişilər qadına feodal düşüncə ilə yanaşırlar. Zamanamızın bir çox kişiləri daha çox tək xidmətçilik etməyi bacaran, təhlil



qabiliyyəti olmayan qadınları xoşlayırlar. Unutmamalıdır ki, heç kəsi döymək olmaz. Hətta uşağa da əl qaldırmaq düzgün deyil. Dinimiz valideynə belə uşağın (tərbiyəsi üçün olsa da belə) müəyyən yaş dövrünə qədər əl qaldırmağa haqq vermir.

Allah-Taala yanında insanlar cinsiyyətlərinə görə deyil insani keyfiyyətlərinə görə dəyərlidir. Sözümün sonu olaraq bu haqda iki Quran ayəsinə işarə edirəm:

1) Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır. (Hucurat surəsi, 13-cü ayə)

Bu şərif ayədə Allah-Təala insanların meyar və dəyər ölçüsünü onların cinsiyyətində və nəsəb və məqamında, eləcə də rəngində, dilində, milliyyətində, filan coğrafi məntəqədən olmasında qərar verməmişdir. Allah dərgahında ən dəyərli şey olaraq təqva və saleh əməl bilinmişdir.

2) "Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Və ya gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik!)" (Nəhl surəsi, 97-ci ayə). Göründüyü kimi Allah-Taala bu ayədə əcr və savabı saleh əməlin bərabərində bilmiş və qadınla kişi arasında fərq qoymamışdır.

Hacı Ramin İgidov